

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

“The Daily Tribune” nəşri: “Azərbaycan regionda davamlı sülh istəyir”


akes off

The fragile process of normalizing relations in the face of Armenian provocations in Karabakh

Azerbaijan, unwaveringly, has repeatedly called on Armenia to cooperate through

3


# SƏS

№ 159 (6842)

5 sentyabr 2023-cü il.
Qiyməti 60 qəpik


# Ali Baş Komandandan növbəti xəbərdarlıq!

2



# Paşinyanın böyük səhvi

4



## Azərbaycan əsgəri İrəvanın və Qərbi Zəngəzurun qapısından daxil olacaq

## AXCP Ali Məclisinin toplantısı yeni qarşıdurmanın əsasını qoydu



13

## Mənzilini sığortalamayanları nə gözləyir?



16

## Şirniyyatı hansı alternativlərlə əvəz edə bilərik?



6

## Benzinin qiymətində artım olacaq?



9

*Aparıcı media quruluşlarının Qarabağla, ümumiyyətlə, son 34 ildə Azərbaycanla Ermənistan arasında yaşanan münaqişə, onun tarixi ilə bağlı qeyri-obyektiv, birtərəfli, hətta bəzi hallarda da qərəzli yanaşmaları yeni hal deyil.*

## Nə oldu BBC standartları?




10

# Ali Baş Komandandan növbəti xəbərdarlıq!



## İLHAM ƏLİYEV: "Bizə qarşı aparılan kampaniya, çirkin təbliğat bizim iradəmizə təsir edə bilməz"

***İki ilə yaxındır ki, davam edən və iki istiqamətdə aparılan Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşması prosesinin uzanması Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə əlaqədardır. Belə ki, 2021-ci ilin dekabrından başlayaraq sülhyaratma prosesində vasitəçilik edən Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqların nəticə verməməsinin əsas səbəbi Ermənistanın mövqesizliyidir. Bu ölkə ikiüzlü siyasətini davam etdirməklə, nələrəsə nail olmaq fikrindədir. Bir yandan Brüssel prosesinə sadiq olduğunu bildirən, hətta görüşlərdə proqressiv irəliləyişlərə belə "hə" deyən rəsmi İrəvan sonradan tamam fərqli şeylər danışır.***

Bir tərəfdə sülhdən, ərazi bütövlüyünün tanınmasından, delimitasiya və demarkasiyanın vacibliyindən bəhs açan Ermənistan nəticədə üzərinə götürdüyü öhdəliklərə riayət etmir. Azərbaycan torpaqlarında hələ də erməni silahlı birləşmələri mövcuddur. Eyni zamanda, həmin silahlı birləşmələr vaxtaşırı müəyyən təxribatlar törədir və sülh prosesinin yekunlaşmasına mane olur. Bu qeyri-müəyyənlik isə bütövlükdə, prosesin sürətlənməsini, sülhün və təhlükəsizliyin təmin olunmasını ləngidir.

Amma bu kimi "mövqe" Ermənistan üçün yaxşı gələcək vəd etmir. Prezident İlham Əliyev müsahibələrində, mötəbər tədbirlərdə bildirib ki, əgər Ermənistan sülh istəmirsə sülh olmayacaq.

Prezident İlham Əliyev müsahibələrində, mötəbər tədbirlərdə dəfələrlə bildirib ki, onlar prosesi ləngidə, artıq müəyyən olunmuş danışıqlar formatını razılığa gəlmək üçün yox, prosesi sonsuz etmək üçün istifadə edə və nəyi isə gözləyə bilərlər.

Ammv İşğalçı öle əvə ona havadar olanlar bilməlidirlər ki, 30 illik Qarabağ həsrətinə Qalib Lider, Ali baş Komandan, Prezident İlham Əliyev cənablarının «Dəmir yumruq» siyasəti ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə cəmi 44 gündə son qoydu. Və Azərbaycvn Prezidenti İlham Əliyev hər zaman bildirir ki, sülhün qorunması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi regionda əməkdaşlığa və iqtisadi inkişafa sərmayə qouluşu üsün real zəmin yaratmış olacaq. Və

### ERMƏNİSTAN SÜLH MÜQAVİLƏSİNİN YEGANƏ ÇIXIŞ YOLU OLDUĞUNU ANLAYIR

Prezident İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə zamanı ölkə başçımız bir sıra vacib məqamlara toxunub. Dövlətimizin başçısının da vurğuladığı kimi, 10 noyabrda imzalanan sənəd Bəyanatdır, sülh müqaviləsi deyil. Azərbaycan sülh müqaviləsinin bağlanmasında maraqlı olan tərəfdir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra sülhü təşviq edir, çünki regionumuzun sabitliyini, onun davamlı inkişafını istəyirik. Daima irəli getmək, Ermənistanla qonşu ölkə kimi normal yanaşı yaşamaq istəyirik. Etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizlik hüquqlarına zəmanət veririk. Ölkə başçısı Prezident İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibəsi zamanı bir daha sülhün vacib olduğunu vurğuladı və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə, erməni icmasına və Ermənistandakı ermənilərə bir sıra vacib mesajlarını çatdırdı. Dövlətimizin başçısı xüsusi vurğuladı ki, "Ermənistan hökuməti üçün seçim çox pis və qəbulolunan arasındadır ki, qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır."

### AZƏRBAYCAN SÜLHƏ, SÜLH DANIŞIQLARINA SADİQDİR

Cənab Prezidentin "Euronews" televiziyasına müsahibəsində konkret beynəlxalq hüquqa əsaslanaraq, Azərbaycanın Konstitusiyasına, xalqın arzu və istəyinə, iradəsinə uyğun olaraq səsləndirdiyi fikirlər, irəli sürdüyü tezislər bu gün dünyada müzakirə olunur. Müsahibədə Azərbaycanın maraqları ortaya qoyuldu və dünya ictimaiyyətinin diqqətinə çatdırıldı ki, Azərbaycan haqqında yalan informasiya yayılmasın. Laçın yolu ilə bağlı məsələlər bundan əvvəl Avropa İttifaqında müzakirə olunanda razılığa gəlindi ki, Qarabağa humanitar yardım Ağdam yolu ilə daşınsın. Bununla bağlı bütün infrastruktur, yol var, şərait yaradılıb. Azərbaycan da təsdiq edir ki, ermənilər Ağdam yolundan maneəsiz keçə bilərlər. Cənab Prezident gömrük postunu və buradan 2 mindən artıq erməninin keçdiyini də diqqətə çatdırdı. Beynəxalq Qırmızı Xaç Komitəsinin qaçaqmalçılıqla məşğul olması da dünya ictimaiyyətinin nəzərinə çatdırıldı ki, Komitə öz funksiyasının əvəzinə tamamən başqa işlərlə məşğul olur. Bir sözlə, Azərbaycan sülhə, sülh danışıqlarına sadiqdir.

Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü təsdiq olundu ki, 86,6 kvadrat-kilometr ərazi Azərbaycanın, 29,9 isə Ermənistanındır. Bu, artıq sərhədlərin müəyyənləşdirilməsi üçün razılığa gəlinən məsələdir. Sovet İttifaqı dağılanda bununla bağlı qərar qəbul olunub, sərhədlər bu cür tanınıb. Sülh müqaviləsi də buna uyğun imzalanmalıdır. Əfsus ki, qeyri-qanuni silahlı dəstələrin hələ də Qarabağda olması, təxribat törətməsi, Azərbaycan sərhədlərinə atəş açılması - bütün bunlar sülhə ciddi problem yaradır. Baxmayaraq ki, Baş nazirlərin müavinləri səviyyəsində danışıqlar gedir. İcmalar arasında da bu yaxınlarda danışıqlar olacaq. Qarabağda yaşayan ermənilərlə növbəti görüş olmalıdır. "Euronews" telekanalına müsahbəsində Prezident İlham Əliyev Ermənistandakı ermənilərə müsaj ünvanlayaraq bildirb ki, biz onların dövləti ilə sülh istəyirik: "Onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır. Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik. Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Bu liderlər onlara daim yalan danışıblar. Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm".

Və bu gün...

### "SÜLH DANIŞIQLARI İLƏ BAĞLI MÖVQEYİMİZ AYDINDIR, MƏNTİQLİDİR, BEYNƏLXALQ HÜQUQA ƏSASLANIR"

Dövlətimizin başçısı müsahibəsində onu da bildirib ki, sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Çünki Azərbaycan öhdəliklərinə sadiq ölkədir. bu gün 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından üç ilə yaxın bir vaxtın keçməsinə baxmayaraq, Ermənistan tərəfi ilə sülh sazişinin imzalanmasının uzanması artıq beynəlxalq münasibətlər, o cümlədən qlobal informasiya təbliğatında Azərbaycanın ardıcıl və daha böyük işlər görməsini diktə edir.

Bir sözlə, Prezident İlham Əliyev "Euronews"a verdiyi müsahibə son zamanlarda istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavab olub. Dövlətimizin başçısı bu platformadan məharətlə yararlanaraq həm bu gün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin Azərbaycanın nəzarəti altında fəaliyyətinə aydınlıq gətirib, həm də Qarabağda yaşayan ermənilərin blokadaya alınması ilə bağlı yalanları ifşa edib, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin, Azərbaycanın atdığı hər bir addımın bütün regionda, dünyada sülhün əldə olunmasına xidmət etdiyini bir daha bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev onu da xatırlatdı ki, Ermənistan rəhbərliyi indiyədək digər öhdəliklərinin icrasından yayınmağa çalışsa da, sonda onları yerinə yetirməyə məcbur olub. Bu həm də ona işarədir ki, Ermənistan bu öhdəliklərini də yerinə yetirməyə məcbur olacaq.

Prezident İlham Əliyev vasitəçilikdə iştirakla bağlı bir-biri ilə rəqabət aparan, özünün iştirak etmədiyi formatı qıcıqla, bəzən isə yersiz aqressiya ilə qarşılayan dairələrə bu mühüm mesajı da verdi: "Əsas məsələ odur ki, istər Moskva, istərsə də Vaşinqton olsun, hər iki vasitəçi danışıqlar üçün şərait yaradır. Bu, üçtərəfli danışıqlar deyil, bu, ikitərəfli danışıqlardır".

Və Azərbaycan yeganə ölkədir ki, qalib ölkə olsa da, düşməninə sülh təklif edir, regionda əmin-amanlığın, təhlükəsizliyin bərqərar olmasına çalışır. Sülh müqaviləsi imzalanacaqsa bu yalnız Azərbaycanın təklif etdiyi 5 baza prinsipi əsasında imzalanacaq. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, «bizim sülh istədiyimiz ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik».

Çünk...

### "BU GÜN BİZİM İRADƏMİZƏ HEÇ KİM TƏSİR EDƏ BİLMƏZ"

"Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz". Bu barədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bildirib. "Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz", - deyən dövlətimizin başçısı bir daha bildirib ki, biz haqq-ədaləti tələb edirik.

Bəli, dövlət başçımızın söylədiyi kimi, bu gün Azərbaycanını mövqeyi irmənalıdır, açıqdır, haqqın, ədalətin tərəfdarıdır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı onu da bildirib ki, bu gün bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar: "Ermənistandan fərqli olaraq onların şəhərlərini "İsgəndər", "Toçka" və "Elbrus" raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir".

Silahlı Qüvvələrimizin Ali Baş Komandanın əmrlərini tam icra etdiyini və icra edəcəyini bildirən dövlətimizin başçısı bildirib: "Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsın və belə olan halda, biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq".

Bir sbzlə, sözü ilə əməli üst-üstə düşən Qalib ölkənin Qalib Lideri, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 30 illik Qarabağ torpaqlarını vəhşi, işğalçı Ermənistanın əsarətində «Dəmir Yumruq» siyasətinə tabe olan Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gündə son qoydu və dövlət başçımızın Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı dediyi kimi: "Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

Beləliklə, əgər Ermənistan həqiqətən sülh istəyirsə, öhdəliklərinə tam şəkildə əməl etməli və ikitərəfli danışıqlar formatında Azərbaycanla razılığa gəlməlidir. Ermənistan rəhbərliyi sözlə ifadə etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü, Qarabağ və Şərqi Zəngəzur üzərindəki suverenliyini rəsmi sənəddə də tanımalıdır. Sülhün, regionda dinc birgəyaşayışın bu şərtlərdən kənarda alternativi yoxdur.

***RƏFİQƏ KAMALQIZI***

ANALIZ

***"The Daily Tribune" nəşrində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin Ermənistan-Azərbaycan münasibətlərindəki son proseslər və bölgədəki mövcud vəziyyətə dair məqaləsi yayımlanıb. Məqalədə 2020-ci ildə müharibədə qalib gələn Azərbaycanın regionda davamlı sülh istədiyi və münasibətlərin normallaşdırılması prosesinə hazır olduğu bildirilir.***

# "The Daily Tribune" nəşri: "Azərbaycan regionda davamlı sülh istəyir"

Qeyd olunur ki, Ermənistan-Azərbaycan arasında sülh danışıqlarındakı əngəllərdən biri İrəvanın açıq şəkildə sülh müqaviləsi bağlamaq istəməməsidir. Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, sülh müqaviləsinin imzalanması üçün real addımlar atmır, əksinə, separatçı quruma maliyyə yardımı ayırmaqla, onu dəstəkləməklə bu işə ciddi ziyan vurur.

Yazıda bildirilir ki, 2020-ci il noyabrın 10-da imzalanan Üçtərəfli Bəyanata əsasən, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarılmalı olsa da, bu, hələ də reallaşmayıb. Ermənistan bununla da Azərbaycanın erməni əhalisinin reinteqrasiya prosesinə müdaxilə edir. Regional sülhə bağlılıq təkcə sözdə deyil, həm də əməldə olmalıdır. Ermənistan isə bunu nümayiş etdirmir.

Ermənistan ilə Azərbaycan arasında bir neçə yüksək səviyyəli görüşün keçirildiyinin vurğulandığı yazıda diqqətə çatdırılır ki,


akes off

ic landing on moon's south pole

atmosphere.

Budget programme

India has been steadily matching the achievements of established spacefaring powers at a fraction of their cost.

The South Asian nation has a comparatively low-budget space programme, but one that has grown considerably in size and momentum since it first sent a probe to orbit the Moon in 2008.

Experts say India can keep costs low by adapting existing technology, and thanks to an abundance of highly skilled engineers.

Last month's successful landing on the lunar surface -- a feat previously achieved only by Russia, the United States and China -- cost less than $75 million.

The touchdown was widely celebrated by the public, with prayer rituals to wish for the mission's success and schoolchildren following its final descent from live broadcasts in classrooms.

India became the first Asian nation to put a craft into orbit around Mars in 2014 and is slated to launch a three-day crewed mission into the Earth's orbit by next year.

It also plans a joint mission with Japan to send another probe to the Moon by 2025 and an orbital mission

The fragile process of normalizing relations in the face of Armenian provocations in Karabakh

SHAHIN ABDULLAYEV

Azerbaijan, which won the war in 2020, offered peace to Armenia based on the principles of international law, including respect for territorial integrity, sovereignty and inviolability of borders internationally recognized. Azerbaijan supports the establishment of lasting peace and stability in the region and is ready for the process of normalizing relations with Armenia.

Despite earlier optimism, the Armenia-Azerbaijan peace talks are still ongoing and may be at a standstill. One of the stumbling blocks on the path to an agreement on a peace treaty is Yerevan's unwillingness to explicitly recognize, in writing, Azerbaijan's territorial integrity (although Armenian prime minister Nikol Pashinyan has made oral pronouncements to that effect several times). However, even this step—written recognition—should not be understood to be sufficient. More specific legal, binding commitments are required in addition, such as constitutional changes, the cessation of unilateral financial support to the ethnic-Armenian secessionist entity, and the deployment of Armenian soldiers in any part of sovereign Azerbaijani territory, including liberated Karabakh and Eastern Zangezur as well as in the area that falls within the zone of deployment of the Russian peacekeeping contingent as defined by the terms of the 10 November 2020 tripartite statement that ended the Second Karabakh War.

Contrary to the commitment formalized in paragraph

checkpoint on the international border with Armenia is a measure taken in accordance with international law and current international practice arising from the sovereign right of our country.

It is of paramount importance to refute any allegations suggesting the "illegality" of the aforementioned border checkpoint or its alleged obstruction of cross-border movement. The International Court of Justice (ICJ), by its order of July 6, 2023, unanimously rejected Armenia's appeal asking Azerbaijan to withdraw its personnel from the Lachin road.

Contrary to Armenia's claims, the Azerbaijani side is organizing the legal, regulated and transparent passage of citizens, goods and vehicles from the Lachin border crossing point. As proof, the movement of civilian populations from the Karabakh region in Azerbaijan to Armenia increased significantly after the establishment of the

Azerbaijan, unwaveringly, has repeatedly called on Armenia to cooperate through border and customs institutions, promoting transparent and

Ermənistan beynəlxalq aləmə bölgədə mövcud vəziyyətlə bağlı təhrif olunmuş məlumatlar ötürür. Burada əsas məqsəd sülh prosesinə zərbə vurmaq, reinteqrasiya məsələlərini ləngitməkdir. Bu isə ümumilikdə bölgədə yeni böhran vəziyyəti yaratmaqla normallaşma prosesini pozur.

Vurğulanır ki, son günlər Ermənistan ictimaiyyətə "Laçın dəhlizi"nin bağlanması, "blokada" və ya "humanitar böhran"ın mövcudluğu haqqında yalanlar sırımağa çalışır. Halbuki, "Laçın dəhlizi" adlanan yol birmənalı olaraq Azərbaycanın suveren ərazisidir.

Üçtərərəfli Bəyanata əsasən bu yol humanitar məqsədlər üçün nəzərdə tutulsa da, Ermənistan bu öhdəliyinə də əməl etməyib. Yoldan bölgədəki qeyri-qanuni silahlılara dəstək vermək və Azərbaycan ərazisindən faydalı qazıntıların qanunsuz çıxarılması üçün istifadə olunub. Buna görə də Azərbaycan cari il aprelin 23-də öz suverenliyini və təhlükəsizliyini qorumaq üçün Ermənistanla Azərbaycan arasında dövlət sərhədində, Laçın yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi quraşdırıb. Sərhəd-keçid məntəqəsində vətəndaşların və nəqliyyat vasitələrinin şəffaf keçidi təmin edilir.

Yazıda Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlardan da bəhs olunur.

Həmçinin bildirilir ki, Ermənistanın iddia etdiyi kimi bölgədə "humanitar böhran" yaşanmasa da, Azərbaycan humanist mövqedən çıxış edərək, alternativ və daha qısa marşrutlardan istifadə etməklə, bu istiqamətdə Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə işləməklə Ağdam-Xankəndi yolu ilə humanitar yardım təklif edir. Rəsmi Brüssel də Ağdam-Xankəndi yolundan istifadə olunmasının sakinlərin həyati ehtiyaclarını təmin etmək üçün vacib adlandırıb. Bütün bunlara baxmayaraq, bölgədə "humanitar böhran"ın yaşandığını iddia edən erməni tərəfi müqavimət göstərməkdə davam edir.

# Azərbaycan-Macarıstan Strateji Dialoqunun ilk iclası keçirilib

***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər və ticarət naziri Piter Siyarto ilə görüşüb. Xarici İşlər Nazirliyinin rəsmi açıqlamasında deyilir ki, nazir Ceyhun Bayramov və nazir Piter Siyarto arasında baş tutan təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib, Azərbaycan-Macarıstan Strateji Dialoqunun ilk iclası keçirilib.***



Görüş zamanı, Azərbaycan-Macarıstan arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Əlaqələrimizin inkişafında ali və yüksək səviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun əhəmiyyəti və rolu qeyd olunub.

Macarıstan ilə iqtisadiyyat, ticarət, əczaçılıq, mədəniyyət, təhsil, idman və sair istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə olunub. Xüsusilə enerji sahəsindəki tərəfdaşlığın əlaqələrdə əsas rol oynadığı vurğulanıb, nəqliyyat və logistika kimi istiqamətlərin əməkdaşlığa əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.

Görüşdə nazir Ceyhun Bayramov tərəfindən postmünaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan tərəfindən Ermənistan ilə münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində göstərilən səylər barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyi, hərbi-siyasi təxribatlar törətdiyi, öhdəliklərindən boyun qaçırdığı, Laçın sərhəd nəzarət buraxılış məntəqəsi təsis edilənədək Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğu bildirilib. Ermənistanın hələ də işğalçı qüvvələrini tam olaraq ölkəmizin ərazilərindən çıxarmadığı vurğulanıb.

Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh gündəliyi, bu çərçivədə ölkəmizin konstruktiv yanaşması və



müvafiq səyləri müqabilində Ermənistanın ziddiyyətli və təxribatçı mövqeyi haqqında müqabil tərəfə məlumat verilib.

Xüsusilə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın hər vəchlə maneçilik törətməsi, Laçın-Xankəndi yolu ətrafında yalan iddialar yayması qeyd olunub. Laçın yolundan gündəlik əsasda erməni sakinlərin keçdiyi, əraziyə böyük həcmli yüklərin daşınması üçün isə Ağdam-Xankəndi yolundan istifadənin Azərbaycan tərəfindən təklif olunduğu xatırlanıb.

Görüş zamanı, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi geniş miqyaslı yenidənqurma işləri barədə fikir mübadiləsi aparılıb və bu prosesdə Macarıstanın göstərdiyi marağa görə qarşı tərəfə minnətdarlıq ifadə olunub. Daha sonra iki nazir Azərbaycan-Macarıstan Strateji Dialoqunun birinci iclasının protokolunu imzalayıblar. Mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

# "Fransa hər zaman Ermənistanı dəstəkləyib"



"Fransa artıq açıq şəkildə ölkəmizə qarşı mövqe sərgiləyir. Keçmiş münaqişə vəziyyətində də Fransa pərdəarxası hər zaman Ermənistanı dəstəkləyirdi. Unutmamalıyıq ki, Fransada siyasi karyera qurmaq istəyənlər əksər hallarda Azərbaycan ərazisindəki separatçıları ziyarət edir, onların üzərindən Fransada erməni lobbisinin dəstəyini almağa çalışırlar. Fransada prezidentliyinə namizədlər də qondarma, separatçı rejimin olduğu ərazilərə dəfələrlə səfərlər ediblər. Hətta Fransa şəhərləri separatçılarla müqavilələr də bağlayıblar". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu deyib.

Onun sözlərinə görə, keçmiş münaqişə vəziyyətinin mövcudluğu dövründə də Fransa hər zaman Azərbaycan ərazisində separatizmi dəstəkləyib: "Fransanın başlıca məqsədi Ermənistanın işğal etdiyi torpaqları hüquqi statusla dəyişdirmək idi. ATƏT-in Minsk Qrupunun da fəaliyyəti buna yönlənmişdi ki, Fransanın iştirakçılığı ilə zaman uzansın və Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarının hüquqi statusunu dəyişməyə müvəffəq olsun. Lakin dövlətimiz, Prezidentimiz buna imkan vermədi. 2020-ci ilin payızında olduqca uğurlu müharibə həyata keçirdik, torpaqlarımızı işğaldan azad etdik.

Bu gün Fransanı daha da aqressivləşdirib, Azərbaycana qarşı düşmən mövqeni açıq şəkildə göstərməyə məcbur edən reallıq Azərbaycan ərazisindəki separatçıların müddətinin sonuna yaxınlaşmasından ibarətdir. Belə olan halda isə Fransa həm dünya ermənilərinin dəstəyindən məhrum olacaq, həm də bu vəziyyət Fransada yaşayan ermənilərin də narazılığına səbəb olacaq.

Məsələnin digər tərəfi isə Fransanın geosiyasi ambissiyaları ilə bağlıdır. Cənubi Qafqaz regionunda gərginlik olduğu halda Fransa bundan istifadə edib, öz mövcudluğunu təmin edə bilər. Artıq Fransanın bu imkanları əhəmiyyətli dərəcədə məhdudlaşıb. Buna görə də Fransa Azərbaycanın yaratdığı bütün reallıqları dəyişdirməyə çalışır.

Fransa Laçın yolu ilə bağlı məsələni yenidən BMT-nin iclasına çıxarmağa çalışır. Bundan öncə Ermənistanın təşəbbüsü ilə belə müzakirələr həyata keçirildi. İndi isə Fransa bu istiqamətdə cəhdlər edir. Xatırlatmaq lazımdır ki, Fransanın bu cəhdləri heç bir zaman məna ifadə etməyib. Biz öz torpaqlarımızı azad etdik və hazırda da Azərbaycan öz suverenliyini təmin edir".

*Səbinə Hüseynli*

# Azərbaycanda mənzillərə əlçatanlıq necə təmin olunur?




***"Hal-hazırda Bakı şəhərində mənzil bazarında canlanma müşahidə edilir. Təxminən avqust ayının əvvəlindən bu canlanma başlayıb və hələ də davam edir. Əgər keçən illərlə bu ilin hazırkı aylarını müqayisə etsək görərik ki, keçən illər ərzində yay aylarında belə canlanma müşahidə edilməyib. Əmlak bazarında adətən yay aylarında daha çox bağ evləri və torpaq sahələrinə tələbat daha çox olurdu. Bu il isə bu belə olmadı. Belə ki, bu il alıcıların daha çoxu sovetlər dövründə tikilmiş 9 mərtəbəli bina evləri və yeni tikilmiş bina evlərini almaq üçün əmlak bazarına daxil olub.***



Bu da öz növbəsində dəyəri 250000 AZN-ə qədər qiyməti olan mənzillərdə tələbat artımı olduğu üçün həmin dəyərdə olan mənzillərin qiymətlərinin artmasına səbəb olub. Dəyəri yuxarıda qeyd etdiyim qiymətdən yuxarı olan mənzillərdə isə qiymətlərin artımı elə də çox olmayıb". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.

Onun sözlərinə görə, son 3 ay ərzində şəhərin mərkəzi hissəsində və mərkəzə yaxın ərazilərdə təxminən 18-20 faiz arası mənzillərin qiymətlərində artım müşahidə edilir: "Yuxarıda qeyd etdiyim kimi, bu artım daha çox ipotekaya yararlı mənzillərdə qeydə alınır. Əgər bu artımın bu il nədən belə olduğunun səbəbini araşdırsaq görərik ki, bu il ipoteka ilə mənzil alanların sayında daha çox artım olub. Əvvəlki illərlə müqayisədə ipoteka şərtlərinin daha da asanlaşması və daha əlçatan olması ona müraciət edənlərin sayının daha çox olmasına səbəb olub. Bir mütəxəsis kimi bunu deyə bilərəm ki, bu aylarda Bakı şəhərində mənzil bazarının belə hərəkətli olmasına ən böyük səbəb alıcıların ipotekaya maraqlarının artması və ipoteka ilə mənzil almaq istəyənlərin sayının çox olmasıdır. Demək olar ki, ipoteka şərtlərinin asanlaşdırılması mənzil bazarına əlavə həvəs verdi. Son onilliklərə nəzər salıb müqayisə etsək yay aylarında ən böyük alıcı qüvvəsi məhz bu il qeydə alınıb. Bu da öz növbəsində əmlak bazarında canlanma yaradıb. Belə ki mənzilini ipotekaya satan bir vətəndaş qiymətdə ondan ucuz mənzillər almaq üçün bazara müraciət edir, bu da yenə digər mənzillərə də tələbat yaradır və əmlak bazarı daha da aktivləşir".



Ekspert sözlərinə davam edərək bildirib ki, ən çox tələbat isə şəhərin mərkəzi hissələri və mərkəzə yaxın ərazilərdə qeydə alınır: "Ən çox qiymət artımı isə yeni binalarda sahəsi nisbətən az, otaq sayı çox və çıxarış sənədi olan yeni bina evlərində qeydə alınmaqdadır. Köhnə binalarda isə daha çox tələbat ipotekaya yararlı 9 mərtəbəli sovetlər dövründə tikilmiş binalarda qeydə alınıb. Əgər analiz etsək görə bilərik ki, daha çox artım ancaq ipotekaya yararlı mənzillərdə qeydə alınır. Bundan başqa əmlak bazarında alıcıların ümumilikdə 50 faizi 160 min manata qədər qiyməti olan mənzillərə maraq göstərir. Alıcıların qalan 50 faizinin isə 40 faizi 250 min manata qədər qiyməti olan mənzilləri almaq üçün mənzil bazarına daxil olurlar. Qalan 10 faizi isə yuxarıda qeyd etdiyim qiymətlərdən yüksək məbləğdə mənzil almaq istəyən alıcılardır. Ümumilikdə mənzil bazarını dəyərləndirsək, bu son 3 ayda şirkət müqaviləsi ilə mənzil almaq istəyənlərin sayında artım olmayıb, əksinə azalma qeydə alınır. Çünki ipoteka almaq üçün mənzilin sənədinin çıxarış olması əsas şərtdir. Belə olan halda çıxarış verilmiş mənzillərə tələbat daha çox olur. Bu da həmin mənzillərin qiymətlərinin artmasına və daha çox tələbatın yaranmasına əsas amil kimi qeyd etmək olar. Bu il bağ evlərinin və torpaq sahələrinin qiymətlərində artım olsa da, bu bir o qədər də çox olmadı. Mən bir ekspert kimi bunu deyə bilərəm ki, əgər bazar bu qayda ilə davam edərsə, onda ipotekaya yararlı mənzillərin qiymətlərində artım il sonunadək davam edəcək. Bir sözlə 2023 -cü ili daşınmaz əmlak bazarı üçün əlamətdar bir il kimi qeyd etmək olar".

***Ləman Sərraf***

# Paşinyanın böyük səhvi

## *Azərbaycan əsgəri İrəvanın və Qərbi Zəngəzurun qapısından daxil olacaq*



1991-ci il sentyabrın 2-də separatçı rejim qondarma "DQR"in elan edilməsi ilə bağlı "bəyannamə" qəbul edib. Lakin dünyanın heç bir dövləti, erməni diasporunun və ermənipərəst siyasətçilərin bütün cəhdlərinə baxmayaraq, ötən illər ərzində Qarabağı müstəqil respublika kimi tanımayıb.

### Nikol Bakı ilə sülh müqaviləsi imzalamağa özündə cəsarət tapmadı

Artıq danılmaz faktdır ki, 2020-ci ilin payızında Azərbaycan ordusu "Miatsum" çılğınlığına son qoyub. Bu gün bu reallıq özünü kifayət qədər təsdiq edir.

Lakin Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağla birlikdə Azərbaycanın ərazi bütövlüyünü (86,6 min kvadrat kilometr) ictimai şəkildə tanısa da, məsələ quru sözdən o yana keçmədi. Nikol Bakı ilə sülh müqaviləsi imzalamağa özündə cəsarət tapmadı. Üstəlik, son aylar İrəvan tərəfindən sərhəd bölgəsində vəziyyətin gərginləşməsi müşahidə olunur. Azərbaycan ərazilərinin atəşə tutulması və təxribat cəhdləri artıq müntəzəm xarakter alıb. Bu isə o deməkdir ki, İrəvan əvvəlki razılaşmalardan geri çəkilmək kursunu götürüb. Biz bunu sentyabrın 2-də də gördük.

### Paşinyan :"Dağlıq Qarabağ"dakı vəziyyət həmişə "Dağlıq Qarabağ hakimiyyəti"nin nəzarətində olub"

"Əgər Ermənistan və Azərbaycan Almatı bəyannaməsinə əsaslanaraq bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımasa, bu, heç vaxt sülhün olmayacağı anlamına gəlir". Məsələ ondadır ki, bu sözləri də Paşinyan İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində deyib. "Dağlıq Qarabağ"dakı vəziyyət həmişə "Dağlıq Qarabağ hakimiyyəti"nin nəzarətində olub. Ən azı 2018-ci ildən bəri belədir. Və bu gün də Dağlıq Qarabağdakı vəziyyətə "Dağlıq Qarabağ"dan seçilmiş nümayəndələr nəzarət edir, orada Rusiya sülhməramlıları da var.

Söhbət tamamilə fərqli bir şeydən gedir. Əgər Ermənistan və Azərbaycan Almatı bəyannaməsinə əsaslanaraq bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanımazsa, bu, heç vaxt sülhün olmayacağı anlamına gəlir", - deyə Nikol Paşinyan sərsəmləyib. Bu isə onun 2020-ci ildə "Qarabağ Ermənistandır və nöqtə" sərsəmliyinin davamıdır, desək yanılmarıq.

### Fransanın sifarişi...

Daha dəqiq desək, Azərbaycanın ərazi bütövlüyünü tanımasından bəhs edən Paşinyan "Dağlıq Qarabağ hakimiyyəti" sözləri ilə öz-özünü təkzib edir. Ermənistan çox yəqin ki, xarici havadarlarının, xüsusilə, Fransanın sifarişi ilə su bulandırmağa cəhd etsə də, əslində, özünün məhvi prosesini sürətləndirir. Bu, həm də intihar faktorunu gerçəkləşdirir. Azərbaycanın isə səbri tükəndi və necə deyərlər, Azərbaycan əsgəri çox yaxında İrəvanın və Qərbi Zəngəzurun qapısından içəri daxil olacaq.

***Afət Tahirqızı***

**Demokratik, hüquqi dövlətimiz milli mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasına da öz töhfəsini verir. Sözsüz ki, bu qloballaşma şəraitində dünya dövlətləri tərəfindən maraqla qarşılanır. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə də olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Müasir dövrümüzdə ölkəmizdə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir.**







# Din - dövlət münasibətləri





## *Prezident İlham Əliyevin Sərəncamı ilə Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat ayrılıb*

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. "Qafqaz Müsəlmanları İdarəsinə maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bu münasibətin təzahürüdür. Sərəncama əsasən, Azərbaycan Respublikasında dini dəyərlərin qorunması və daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat ayrılıb.

### "AZƏRBAYCANDA DİN DÖVLƏTDƏN AYRIDIR"

Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.

Azərbaycanda müxtəlif xalqların nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Son illərdə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin,



ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşü, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması, ölkədə həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Bu gün ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Azərbaycan Prezidentinin məlum Sərəncamı ilə Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Bu Sərəncam Azərbaycanın xarici dini təhsildən asılılığını azaltmaq, yerli ilahiyyatçı kadr ehtiyacını təmin etmək baxımından əhəmiyyətlidir. Ölkəmizdə vətəndaşların dini etiqad, vicdan və təhsil hüquqlarının səmərəli realizəsinin ölkə rəhbərliyinin diqqət mərkəzində olmasının bariz göstəricisidir. İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir.

Dövlət başçısının çıxışlarının birində vurğuladığı kimi: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur".

### DİNLƏRARASI VƏ SİVİLİZASİYALARIN TƏMAS MƏRKƏZİ

Müasir dünyada müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu bir inkişaf yolundadır. Bəzi dünya dövlətlərində terrorizm, islama qarşı hücumlar artıb, islamafobiya güclənib. Avropa dövlətlərində milli mövcudluğu qoruyub saxlamaq cəhdlərinə qarşı aqressivlik, milli, dini və ayrı-seçkilik, mühacir və qaçqınların sıxışdırılması fonunda Azərbaycanda tolerantlıq, dözümlülük, multikulturalizm mühiti diqqətdən kənarda qalmır. Ölkəmiz mədəniyyətlərarası, dinlərarası və sivilizasiyaların təmas mərkəzinə çevrilib.

Həqiqətən də, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Zümrüd BAYRAMOVA***

# Şirniyyatı hansı alternativlərlə əvəz edə bilərik?

***Bir çox insan sağlam qidalanmaq üçün şəkərin zərərverici təsirlərindən uzaqlaşmaq istəyir. Bəs, necə edə bilərik ki, həm şirniyyatdan istifadə edək, həm də onun zərərverici təsirlərindən özümüzü qoruyaq?***



SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bunun üçün yemək və desertlərimizə şəkər dadı verəcək çoxlu təbii qidalar var. Yeməklərinizdə şəkər yerinə istifadə edə biləcəyiniz təbii və sağlam alternativlər bunlardır:

**Bal**



Şəkərdən istifadə etmədən şirniyyat hazırlamaq üçün ağla gələn ilk inqridient baldır. Təbii şəkərlə zəngin olan bal vitamin və minerallara malikdir. Buna görə qidalarınıza əlavə etməkdən çəkinməyin. Bal şəkər tozundan daha şirin olduğundan reseptlərdə istifadə olunan şəkərin 3/4-dən istifadə etmək kifayətdir.

**Banan**



Bananlarda desertlərinizi şirinləşdirmək üçün çoxlu təbii şəkər var. Şirniyyatlarınıza banan əlavə edəcəksinizsə, yetişmiş bananların daha çox şəkər ehtiva etdiyini unutmayın.

Yetişməmiş bananları sobada qızdırıb desertlərinizə əlavə etsəniz, bir daha heç vaxt şəkər tozu axtarmayacaqsınız.

**Duz**



Şəkər əvəzinə duzdan istifadə etmək qəribə səslənə bilər. Amma desert reseptlərinin əksəriyyətinə bir çimdik duz əlavə olunur. Çünki duz qidaların təbii şəkərini üzə çıxarmaq və onların acılığını azaltmaq qabiliyyətinə malikdir.

**Darçın**

Şəkər yerinə şirin ədviyyatlar-



dan istifadə edə bilərsiniz. Bu ədviyyatlardan biri də darçındır. Darçınla yanaşı, hil və şüyüd kimi ədviyyatlar da şəkəri əvəz edə bilər.

**Vanil**



Vanil tortlarınıza və peçenyelərinizə ləzzət qatmaq üçün şəkərə əla alternativdir. Təbii şəkərlə dolu vanili toz halında və ya toxumla birlikdə istifadə edə bilərsiniz. Bu həm şinriyyatlara dad qatacaq, həm də onları yedikdə xoş qoxu hiss edəcəksiniz.

**Yerkökü**



Yerkökü, işlənmiş şəkərə ehtiyac olmadan həm şirin, həm də ləzzətli yeməklərə istənilən şirinliyi əlavə etmək üçün əla tərəvəzdir. Əgər şəkərə alternativ olaraq yerkökü istifadə edəcəksinizsə, kök bişdikdən sonra daha şirin olduğu-



nu unutmayın.

**Soğan**

Şəkər əvəzedicisi kimi istifadə edə biləcəyiniz başqa bir inqridient soğandır. Bəli, bu da qəribə səslənə bilər. Amma elə bir resept yoxdur ki, karamelize (yaxşı qızardılmış) edilmiş soğan ona biraz şirinlik əlavə etməsin.

**Təbii meyvə şirələri**



Çoxumuzun günə yüksək enerji ilə başlamaq üçün istehlak etdiyi şirələr səhər yeməyi ilə məhdudlaşmamalıdır. Meyvə şirələri şirniyyata olan ehtiyacı ödəmək üçün praktik və asan yoldur.

Şəkər 5 hərfli bir zəhərdir. Bəli, zəhərdir. Xüsusilə də qadınlar özəl günlərində və həssas dönəmlərində şirniyyata daha bağlı olur. Bu çox sevilən şirniyyatlar isə əslində sağlamlığımıızn bir nömrəli düşmənidir.

Şəkər istəyimizin başqa bir səbəbi hipoqlikemiyadır. Qan şəkərinin sürətlə azalması ilə izah oluna bilən hipoqlikemiya insanın qəlyanaltı yemək vərdişi yoxdursa və ya uzun müddət ac qalırsa, qan düşməsi səbəbiylə baş verir. Hipoqlikemiyası olanlar mütləq gündə 2,5-3 saatdan bir qida qəbul etməli və sağlam qidalanmalıdır.



**Şirniyyat yemə istəyindən necə qurtulaq?**

Hər şeydən əvvəl onun verdiyi zərərlərə və sağlamlığımız üçün yaratdığı təhlükələrə nəzər salmaqla prosesə başlaya bilərik. Şəkərin zərərləri saymaqla bitmir və bu siyahı dməək olar ki, sonsuzdur.

Çoxumuzşəkərin sağlamlıq üçün faydalı olmadığını bilirik. Amma onun sağlamlığımızı təhlükə altına salacaq hansı vəziyyətlər yaratdığından xəbərsiz qalırıq. Bunun üçün şəkərin nə olduğunu bilməliyik. Şəkər, tərkibində karbohidratlar olan hər şeydir. Kartof dadı şirin olmasa da, bu mənada şəkər anbarıdır. Çörək üçün bir növ şəkər də deyə bilərik. Burada demək istədiyimiz odur ki, karbohidratlardan uzaq olun, onları həyatınızdan çıxarın. Demək istədiyimiz şey aşağı glisemik indeksli qidalarla yüksək glisemik indeksli qidaları ayırd etmək və aşağı glisemik indeksli qidaları seçməkdir. Glisemik indeks şəkərin ölçülməsi sistemidir. Xülasə, qidada şəkər nə qədər çox olarsa, bu ölçünün dəyəri bir o qədər yüksək olar. İndeksdə tavan 100 hesab edilir və zirvəyə, yəni 100-ə yaxınlaşdıqca şəkər nisbəti artır. Kartof nümunəsinə davam etsək, qaynadılmış kartofun glisemik indeksi 85-dir. Bu nəticə sizə belə cavab verir: Yediyiniz kartofun tərkibindəki şəkərin 85%-ni siz istehlak etmisiniz. Bu səbəblə yediyiniz qidaların glisemik indeksini yoxlamağa laqeyd yanaşmamalısınız.

**Şəkərin zərərləri nələrdir?**

Araşdırmalara görə, elm adamları şəkərin narkotik qədər asılılıq yaratdığını deyirlər. Şokolad yeməyə başlayanda beyniniz xoşbəxtlik hormonları olan dopamin və opiatlar ifraz etməyə başlayır. Bu asılılıq yaradan hormonlar sizi daha çox şokolad aıb yeməyə sövq etməyə başlayır. Tövsiyəmiz şokolad ehtiyacınızı tünd şokoladla qarşılamaqdır. Amma yenə də həddi aşmadan bunu etmək lazımdır. Gündə 20 qram yeyəcəyiniz tünd şokolad şirin ehtiyacınızı ödəyəcək.

- Şəkər uzun müddətdə öd yolları və ağciyər xərçənginə səbəb olur. Bundan əlavə, bədəninizdə xərçəng hüceyrələri varsa, bu hüceyrələr də qidalanır.
- Damarlarınızın sərtləşməsinə və qan dövranı sisteminizin pisləşməsinə, damarların tıxanmasına səbəb olur. Ürək-damar xəstəlikləri və qan təzyiqi yaradır. Bu, infarkt riskini 300 dəfə artırır.
- Depressiyaya, narahatlıq və diqqətin yayınmasına səbəb olur.
- Orqanizmdəki maye balansını pozaraq diqqət çatışmazlığı, hiperaktivlik və buna bənzər psixi problemlərə səbəb ola bilər.
- Dişlərdə və diş ətlərində problemlərə, boşluqlara və saralmalara səbəb olur.
- Hamilə qadınlarda körpənin inkişafına mənfi təsir göstərir. Uşaqlarda böyümə hormonlarının ifrazını maneə törədir, bütün bədən hormonlarının balansını pozur.
- Yüksək çəkiyə görə sümük və əzələ sisteminin strukturunun pozulmasını sürətləndirir, osteoporoza səbəb olur.
- Bir araşdırmaya görə, həddindən artıq şirniyyat istehlak edən insanların qaçılmaz sonu Alzheimer xəstəliyidir.
- Sinir sisteminizi məhv edir.
- Böyrək daşlarına və böyrək çatışmazlığına səbəb olur.
- Konsentrasiya itkisinə səbəb olur.
- Miqrenə və tez-tez baş ağrılarına səbəb olur.
- Bədənin müdafiə sistemini zəiflədir və onu xəstəliklərə, eləcə də müxtəlif viruslara qarşı həssas edir.

**Şirniyyat ehtiyacınızı bunlar öldürəcək:**

- Günəbaxan
- Kefir və digər probiotik məhsullar
- Darçın
- Badam
- Yulaf və digər kompleks karbohidratlar
- Yosunlar və su bitkiləri
- Şirin kartof

Araşdırmalar göstərir ki, qəhvənin tərkibindəki kofein qan şəkərini artırır. Sürətlə yüksələn qan şəkəri də sürətlə aşağı düşərək şirniyyat istəyinizi artıra bilər. Bu səbəblə qəhvəni qədərində istehlak etmək faydalıdır.

***Ardı Səh. 7***

ARAŞDIRMA

# Şirniyyatı hansı alternativlərlə əvəz edə bilərik?



**Əvvəli-Səh-6**

**Yuxu rejimlərinizi tənzimləyin**

Tədqiqatlar göstərir ki, yorğun bədənin suda qalması üçün daha çox şəkərə ehtiyacı var. Bu səbəbdən yuxu rejiminizi yaxşı müəyyənləşdirin və bədəninizin ehtiyac duyduğu keyfiyyətli yuxunu almağa diqqət edin.

Stresssiz qalmağa çalışın

Gərgin iş və ya gərgin ev həyatında stressdən uzaq durmaq çətin bir vəziyyət kimi görünsə də, stressin həm bədəninizə, həm də ruhunuza zərər verdiyini unutmayın. Hamımız keyfiyyətli və sağlam həyat istəyirik. Stresli şeylərdən nə qədər uzaq durmağı bacarsaq, psixoloji və fiziki olaraq özümüzü bir o qədər yaxşı hiss edəcəyik.

Əvvəllər sərvət göstəricisi sayılan və ağ qızıl adlandırılan şəkərin artıq sağlam həyatda yeri yoxdur. Bəs nə oldu ki, insanlar şirniyyatdan uzaqlaşdı və sağlam qidalanmanı seçdi?

Araşdırmalar göstərir ki, şəkərli qida qəbulu, eroin və digər opioidlər kimi beyindəki opioid reseptorlarını aktivləşdirir. Bu da maddə asılılığına bənzər impuls sistemini aktivləşdirir. Uşaqlarda şəkər asılılığı bu gün ən çox rastlaşdığımız vəziyyətlərdən biridir. Əlavə edilmiş şəkərlər pəhrizdə ümumi enerji qəbulunu artırsa da, onun qida tərkibini azaldır. Çünki əlavə edilən şəkərlərin heç bir qida dəyəri yoxdur və boş enerji mənbəyidir. Buna görə də şəkər əlavəsi olan qidaların həddindən artıq istehlakı balanssız qidalanmaya səbəb olur.

Tərkibində yüksək şəkər olan qidaların istehlakı qan şəkərini sürətlə artırır və mədəaltı vəzi artan qan şəkərini tənzimləmək üçün həddindən artıq insulin ifraz edir. Bu, qan şəkərimizin səviyyəsinin birdən düşməsinə nəticədə də yenidən aclıq hissi və şəkər ehtiyacına səbəb olur.

Şəkərli qidaların həddindən artıq istehlakı piy toxumasının artmasına səbəb olur. Bundan əlavə şəkər istehlakı toxluq siqnalını beyinə ötürən leptin hormonunun funksiyasını pozur və doyma siqnalı beyinə çatmadığından qida qəbulu daha çox olur. Bütün bunlarla yanaşı, piy toxumasının artması ürək-damar xəstəlikləri, diabet, hipertoniya və xərçəng kimi müxtəlif xəstəliklərin riskini artırır.

Şəkər tərkibli qida və içkilərin tez-tez fasilələrlə istehlak edilməsi və bu qidaların uzun müddət ağızda saxlanması diş çürüməsinə səbəb olan turşu əmələ gəlməsini artırır. Şəkərin həddindən artıq istehlakı sağlam bağırsaq florasında göbələklərin və parazitlərin çoxalmasına səbəb olur ki, bu da bir sıra sağlamlıq problemlərinin yaranmasına və immunitetin zəifləməsinə səbəb olur.

Amerika Ürək Dərnəyinin tövsiyələrində uşaqlara 2 yaşına qədər şəkər əlavə edilmiş heç bir qida və içki ilə tanış edilməməsi qeyd olunub. Uşaqlarımızı şəkər və şəkərli qidalardan uzaq tutmaq çətin olsa da, bu mümkündür. Mətbəximizdə ağ şəkər əvəzinə istifadə edə biləcəyimiz sağlam alternativlərə nəzər salaq:

**Kokos şəkəri**

Dadı və qoxusunun gözəlliyi ilə yanaşı, sağlam olan kokos şəkərini şirniyyat əvəzinə içki və desertlərinizdə rahatlıqla istifadə edə bilərsiniz.

**Xurma şəkəri**

Xurma gözəl dadlı və eyni zamanda çoxlu vitamin ehtiva edən meyvədir. Xurma şəkəri isə bu meyvənin toz halına salınması ilə əmələ gəlir. Yeməklərinizi və içkilərinizi şirinləşdirmək üçün bu sağlam və dadlı tozdan kömək ala bilərsiniz.

**Ağcaqayın siropu**

Ağcaqayın şərbəti baldan bir qədər daha maye quruluşa malikdir. Bu şərbətdə 24 növ antioksidant var. O, həmçinin beyin hüceyrələrini qoruyur. Həm də Alzheimer



xəstəliyinə qarşı qoruyur. Şirniyyat və desertlərinizə dad qatmağın ən sağlam yollarından biri mütləq ağcaqayın siropundan istifadə etməkdir.

Çay şəkəri dediyimiz şəkər şəkər qamışından və ya şəkər çuğundurundan alınır. Əvvəllər yalnız şəkər qamışından istehsal oluna bilərdi. Bu, zənginlik əlaməti idi. Şəkər istehsalı o qədər qazanc verirdi ki, şəkər qamışı tarlalarına sahib olanlar sanki "qızıl tarlas"ına sahib sayılırdılar. Hətta bir vaxtlar ona "ağ qızıl" da deyirdilər. 1800-cü illərdə şəkər çuğundurundan da əldə oluna biləcəyi aşkar edildi və şəkər istehsalı sürətlə yayıldı. Həm istehsal, həm də istehlak artdı. 19-cu əsrin sonlarında ABŞ-da adambaşına illik şəkər istehlakı 2,3 kq idisə, bu gün 45,9 kq-a yüksəlib.

Son olaraq xatırladaq ki, qazlı içkilər, hazır tərəvəz şirələri, şirniyyatlar, dondurmalar, tortlar, peçenyelər, şokoladlar və mürəbbələr şəkər əlavə edilərək hazırlanan qidalar arasındadır və biz bu qədər şəkər ehtiva edən qidaları istehlak etdiyimizin fərqində belə deyilik.

***Ayşən Vəli***

# Nə oldu BBC standartları?




***Aparıcı media quruluşlarının Qarabağla, ümumiyyətlə, son 34 ildə Azərbaycanla Ermənistan arasında yaşanan münaqişə, onun tarixi ilə bağlı qeyri-obyektiv, birtərəfli, hətta bəzi hallarda da qərəzli yanaşmaları yeni hal deyil. Belə media quruluşlarının arasında təəssüf ki, peşəkarlığı və xəbərçilikdə standartları ilə hər zaman örnək model yaratdığı bildirilən BBC-də var.***

Məsələn, BBC-yə məxsus saytda biz Qarabağda məskunlaşmış bir erməni sakininin "acılar və məşəqqətlərlə dolu məhrumiyyətlərə sarılmış" həyat hekayələrinə tez-tez rast gələ bilərik. Amma kim deyə bilər ki, Qarabağdan qaçqın düşmüş, yaxınlarını itirmiş, ölümün və dəhşətin pəncəsindən zorla qurtulmuş bir azərbaycanlının həyat hekayəsinə də orada yer verilib? Bu sözlər Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı filologiya elmləri doktoru Vüqar Ziféroğlunun "Nə oldu BBC standartları?" sərlövhəli məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

Beynəlxalq jurnalistikanın ən başlıca standartı hadisəyə hərtərəfli və obyektiv baxışı təmin etmək üçün tərəflərin hər birinə eyni qaydada yer ayırmaqdır. Bizə yer ayırırlarmı? Xeyr! Elə son müzakirəsi gedən verilişdə də Qarabağın erməni icmasının nümayəndəsi olaraq sırınan separatçı və xaricdə öz köşəsində oturub "miatsum" fantaziyalarından ekstaza gələn daşnak diaspora nümayəndəsinə yer ayırmaq əvəzinə, qonaq kimi Qarabağdan bir azərbaycanlının çağırılması daha peşəkar olmazdımı? Axı jurnalistikanın peşəkarlıq meyarı bunu tələb edir.

Yaxud da verilişdə "Artsax" ifadəsini ön plana çıxartmaqla faktiki olaraq beynəlxalq hüququn subyekti sayılmayan və heç bir ölkə, o cümlədən də Ermənistanın özü tərəfindən tanınmayan, dünyanın hansısa rəsmi xəritəsində yer almayan, yəni, faktiki olaraq mövcud olmayan, separatçı, bölücü ideyanın xəstə məhsulunu leqallaşdırmaq nə dərəcədə doğrudur? Beynəlxalq jurnalistikada əsas prinsiplərdən biri həm də beynəlxalq hüququn aliliyini gözləməkdir. BBC bunu gözlədimi? Xeyr!

1952-ci il dekabrın 16-da UNESCO Ali Assambleyasının 403-cü toplantısında qəbul edilmiş 635-ci qətnaməsinə əsasən hazırlanmış "İnformasiya sahəsində çalışanlar üçün Beynəlxalq etik normalar kodeksi"nin 4-cü maddəsində bildirilir: "beynəlxalq arenada baş verən proseslər barədə məlumatlar hazırlayan jurnalist həmin ölkələr barədə dolğun məlumatlara malik olmalıdır ki, dəqiq və dolğun material hazırlaya bilsin". 1978-ci il noyabr ayının 28-də UNESCO üzvü olan dövlətlər tərəfindən qəbul edilmiş və 11 maddədən ibarət "KİV-in sülhün və beynəlxalq əlaqələrin gücləndirilməsinə, insan hüquqlarının inkişafına və irqçilik, aparteid rejimləri, müharibə əleyhinə fəaliyyətinə toxunan başlıca prinsiplər barədə Deklarasiya"da birmənalı şəkildə vurğulanır ki, "Fikir azadlığına hörmət etmək məqsədilə KİV müxtəlif tərəflərə öz səhifələrində yer verməlidir". Eyni zamanda, 1993-cü ildə Avropa Şurası Parlament Assambleyasının jurnalist etikasına dair 1003 nömrəli Jurnalist etikasına dair qətnaməsində "Münaqişəli situasiyalar və xüsusi müdafiə tələb edən hallar" bölümündə qeyd edilən prinsiplər niyə yada düşmür? Bundan əlavə, 1993-cü ildə Avropa Şurası Parlament Assambleyasının jurnalist etikasına dair qəbul etdiyi beş maddədən və dörd tövsiyədən ibarət 1215 nömrəli sənədi də buraya misal çəkmək olar. Orada açıq şəkildə yazılıb: "KİV-də informasiyaların neytrallığı, fikir plüralizmi" qorunmalıdır. Sonda bir sual ortaya çıxır: nə oldu BBC standartları?

# Sülh danışıqlarına ALTERNATİV

**_Belə görünür ki, Ermənisran tərəfi, ələlxüsus da, başda elə erməni baş nazir Nikol Paşinyan olmaqla, bu ölkə hakimiyyəti üçün hər şey bitib və ümidsizlik girdabında olanlar müharibəni yenidən yaxınlaşdırmaqda olduqlarının deyəsən, fərqində deyillər, yaxud da bunu anlamırlar. Fərqində olsaydılar, anlasaydılar dərk edərdilər ki, sülh danışıqları həqiqətən də bu danışıqlara maraqlı olanlarla aparılırsa və Ermənistan da sülh danışıqlarında maraqlı görünmürsə, deməli, ermənilər müharibənin başlamasına rəvac verirlər, çünki sülh danışıqlarının alternativi müharibədir._**

Təhlil



Paşinyanın son davranışlarından, tərzindən və söylədiklərindən bəlli oldu ki, onun sülh barəsində dedikləri söz xatirinə işlənən ifadələr imiş. Əslində, onu qətiyyən maraqlandıran sülh deyilmiş və diplomatik danışıqlar zamanı vəziyyətdən çıxmaq üçün sülh danışıqları ilə bağlı ifadələrdən istifadə edir, özünü də ölkəsini də sülh sazişində maraqlı tərəf kimi göstərirmiş. Nikolu maraqlandıran əslində, əlində olanı qoruyub saxlamaqdır. O, əvvəla hakimiyyətini qoruyub saxlamağa çalışır. Nikol Vovayeviç hakimiyyəti ələ keçirmək üçün dəridən-qabıqdan çıxdığı küçə nümayişlərində girdiyi rola indi də ustalıqla girib, hansıki məqsəd ələ keçirdiyi hakimiyyətini əlindən verməməkdir. Bilir ki, Sarkisyan kimi, Koçaryan kimi vəzifə, hakimiyyət hərisləri ac qurd kimi onun hakimiyyətini əlindən qapmaq arzusundadırlar və onların bu arzuları Nikola çox baha başa gələ bilər. Yaxşı başa düşür ki, hakimiyyətini əlindən alsalar, onun həyatı belə təhlükə altında olacaq və xilası müşkülə çevriləcək, çünki Ermənistan üçün, ermənilər üçün terror adi ənənə halındadır. Deməli, erməni baş nazir ilk növbədə hakimiyyətini əlində saxlamaqla, həyatını da xilas etmək niyyətindədir və fərqli şəkildə, özü də bir-birinə zidd sayıqlamaları da buna görədir.

"Dağlıq Qarabağ"ın bir ərazi vahidi kimi mövcud olmaması və "Dağlıq Qarabağ problemi"nin həlli ilə bağlı bütün bəyanatlar "Dağlıq Qarabağ" ermənilərinin təhlükəsizliyi və hüquqlarının müdafiəsi məsələləri həll olunmayana qədər əsassızdır", deyə Ermənistanın baş naziri qondarma olan "Dağlıq Qarabağın Müstəqillik Bəyannaməsi"nin qəbulunun ildönümü ilə bağlı çıxışında sayıqlayıb və onun bu sayıqlaması təkcə sülhə maneə yox, artıq təxribatdır. Bunun təxribat olduğunu anlaması üçün Nikol heç olmasa kimi təbrik etdiyi barədə az da olsa düşünməli və dərk etməli idi ki, təbrik etdiyi Qarabağ separatçılarıdır, hansıki onlar Azərbaycanın ərazi bütövlüyünü tanımayan və ölkəmizin Qarabağ iqtisadi rayonunda qanunsuz yaşayanlardırlar. Deməli, təbrik etməklə Paşinyan onları dəstəkləmiş, onların tərəfindən olduğunu bəyan etmiş olur və bu həm də Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə əvvəlcə söylədikləri ilə ziddiyyət təşkil edir.

Deyəsən, Nikol Paşinyan təxribat xarakterli bəyanat verməkdə Ermənistanın ikinci prezidenti Robert Koçaryan və üçüncü prezidenti Serj Sarkisyanla yarışa girib və təxribatçılıqda da rəqabət aparmağı qərara alıb. Bu isə artıq Ermənistan üçün fəlakətdən başqa bir şey vəd etmir. Yalnız təxribat yolunu seçən eks prezidentlərin məqsədi qarışıqlıqdır, hansıki bu qarışıqlığı da Paşinyan öz hakimiyyətinə, azadlığına və həyatına təhlükə hesab edir. Görünür elə ona görə də hərbi təxribata yol verib, hansıki Azərbaycan Ordusu bu təxribatın qarşısını alıb, üç erməni hərbçisi, eləcə də Ermənistan Silahlı Qüvvələrinin pilotsuz uçuş aparatlarına (PUA) mobil yerüstü idarəetmə məntəqəsi məhv edilib. Erməni təxribatından dərhal sonra Azərbaycanın pislənəcəyi ilə bağlı Paşinyanın hesablaması da baş tutmayıb. "Aİ bütün tərəfləri növbəti zorakılıqdan çəkinməyə və üzərinə düşən öhdəlikləri yerinə yetirməyə çağırır", deyə Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik üzrə Ali Komissarının mətbuat katibi Piter Stanonun öz səhifəsində qeyd etdikləri heç də erməni baş nazirinin, yaxud da hansısa bir erməninin arzuladığı deyildi və onları qane edə bilməzdi.

Diqqətə çatdıraq ki, son günlərdə Avropa İttifaqı Şurası artıq Ağdam yolundan istifadənin fövqəladə və gündəlik ehtiyaclarla əlaqədar tədarüklə bağlı davamlı həllin bir hissəsi ola biləcəyini bəyan edib və daha dəqiq desək, onun fikirlərində Azərbaycanın mövqeyinə dəstək ifadə olunub. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən üçtərəfli danışıqlarda eyni fikirləri Avropa Şurasının rəhbəri Mişel də ifadə edib. İndi ən maraqlısı Paşinyanın təxribatçı bəyanatına Mişelin necə reaksiya verəcəyidir və heç şübhəsiz ki, necə reaksiya verəcəyindən asılı olmayaraq, Avropa İttifaqı Şurasının sədri öz hüzurunda Azərbaycanın, o cümlədən Qarabağ iqtisadi rayonunun ərazi bütövlüyünü tanıdığını bəyan edən Ermənistanın baş nazirinin nə qədər ikiüzlü və məkrli siyasətçi olduğuna bir daha əmin oldu. Əmin oldu ki, erməni baş nazir sadəcə olaraq rola giribmiş, artistlik edirmiş və onun sözlərinə inanmaq, yaxud da istinad etmək olmaz.

Artıq erməni yalanlarını bilə-bilə tirajlamağı özünə rəva bilən ermənipərəstlər istisna omaqla, dünya ictimaiyyətinin böyük əksəriyyəti Ermənistanın, bu ölkə hakimiyyətinin yalan üzərində siyasətini qurduğu barədə çoxdan doğru qənaətə gəlib. Qarabağ separatçılarının cinayətkar rejiminin məhz Ermənistanın dövlət büdcəsi hesabına maliyyələşdirildiyi də heç kim üçün sirr deyil və hamı bilir ki, bu gün də həmin maliyyələşmə davam edir, üstəlik, erməni baş nazir də separatçıları həyasızlıqla, utanmadan təbrik edir. Rəsmi İrəvan qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün nə isə etmək əvəzinə, onları təbrik etməklə ruhlandırır da. Bir tərəfdən də erməni baş nazir rəsmi Bakının məntiqli, ağlabatan təklifləri ilə razılaşmayaraq, sayıqlamalar edir, bununla da təxribatlara rəvac verir, müharibə olma ehtimalını artırır.

Həqiqətən də Ermənistanın baş nazirinin qondarma olan "Dağlıq Qarabağın Müstəqillik Bəyannaməsi"nin qəbulunun ildönümü ilə bağlı çıxışı, separatçıları təbrik etməsi işğalçı ölkənin, onun rəhbərinin hələ də ərazi iddialarından əl çəkməməsi deməkdir. Məhz ermən baş nazirinin çıxışı və "təbriki" Qarabağın guya Ermənistana məxsus olması barədə bir neçə il öncəki sayıqlamaları ilə eyni məntiqlə səslənir. Amma Nikol Paşinyan unudur ki, onun məlum sayıqlamasının ardınca 44 günlük müharibə başladı və Ermənistan tərəfi rüsvayçı məğlubiyyətlə, eyni zamanda, çox böyük itgilərlə qarşılaşmalı oldu və hələ də bu ölkə özünə gələ bilmir. Görünür, Ermənistanın baş naziri və onun hakimiyyət komandası başa düşməkdə çətinlik çəkir ki, bu dəfə də uyğun sayıqlamaları müharibəyə səbəb ola bilər və onlar üçün daha acınacaqlı sonluq gözlənilir. Əgər Nikol Paşinyan sülh prosesinə zidd olan fikirlər səsləndirirsə, sülhdən yayınırsa, deməli, seçimi müharibədi, çünki qeyd olunduğu kimi, sülh prosesinə, sülh danışıqlarına alternativ məhz müharibə hesab olunur.

**_İnam Hacıyev_**

---

# "Azərbaycanda kiber qəzanın qorunması fəaliyyəti sürətlə inkişaf etməkdədir"

**_"Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası" qəbul olunub. Ölkəmizdə günümüzün informasiya mühafizəsi, kiber qəzanın qorunması fəaliyyətləri sürətlə inkişaf etməkdədir._**

Sözü gedən Strategiyanın müəyyən maddələrinə əsasən kibercinayətkarlıqla mübarizə, kiberkriminalistika sahəsində fəaliyyətin gücləndirilməsi habelə informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair normativ bazanın təkmilləşdirilməsi hüquqi proseslərin inkişaf etdirilməsinə imkan yaradacaq. Bununla yanaşı adı keçən maddələrin daxilində maarifləndirilmiş cəmiyyət, sahənin fərdlər arasında inkişafı informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin yüksəldilməsi gələcəkdə yarana biləcək risklərin minimuma endirilməsi və qarşısının alınmasında böyük rol oynayacaq".

Bu sözləri SİA-ya açıqlamasında kibertəhlükəsizlik üzrə ekspert Şahin Alıyev deyib. Onun sözlərinə görə, sözügedən sənədlərdə özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsi və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, informasiya proseslərinin mühafizəsi, kibertəhlükəsizliyin gücləndirilməsi tədbirləri texniki və metodik vasitələrin yaradılması, informasiya resurslarının və sistemlərinin mümkün təhdidlərindən qorunması, kibertəhlükəsizlik sahəsində ümummilli hazırlığın yaradılması və s. bu kimi əsaslar qarşıya qoyulub: "Ümumilikdə bildiyimiz kimi kiberhücumların sayında artım müşahidə olunur. Bu cür hücumların qarşısının alınmasında xüsusən bu sahədə fəaliyyət göstərən dövlət qurumları daima mübarizə aparmaqdadırlar. Hücumlarla mübarizədə ən önəmli faktor isə vacib şəkildə maarifləndirmə fəaliyyətlərinin təşkilidir. Adı keçən strategiyanın daxilində bu məsələyə xüsusi toxunulub. Bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, adı keçən strategiyanın hazırlanmasında xüsusi dövlət və bu sahədə fəaliyyət göstərən özəl qurumların birgə fəaliyyətləri olmuşdur".




Ekspert sözlərinə davam edərək bildirib ki, kibertəhlükəsizliyin inkişafı, ölkəmizdə kadr potensialının gücləndirilməsi və İT profilli şirkətlərə güzəştlərin tətbiqi ilə bağlı ölkə başçısının demək olar ki, bütün cari illər ərzində Fərmanı olub: "Düşünürəm ki, ölkə başçısı tərəfindən bu sahəyə göstərilən diqqət təktərəfli olmayacaq, bu güzəştlərdən istifadə edərək böyüyən şirkətlər də kadr potensialının gücləndirilməsinə öz töhvəsini verəcəkdir. Bu elə bir istiqamətdir ki, təhsil müəssisələri, sahə üzrə fəaliyyət göstərən şirkətlər, texnoparklar birgə çalışaraq daha keyfiyyətli kadrlar yetişdirmək üçün maraqlı olmalıdırlar.

İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında dövlət qanunu və gələcəkdə bu qanunun təkmilləşdirilməsi bununla yanaşı yeni qanun təklifləri, strategiya və bunun kimi bir çox fəaliyyətlər sahənin ölkəmizdə sürətlə inkişaf etməsinin əyani sübutudur".

**_Ləman Sərraf_**

# BBC-ni erməni separatizminin təbliğinə sövq edən nədir?

Bu ilin iyul ayında 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliklərinin, 12 beynəlxalq təşkilat və media qurumunun, həmçinin 60 yerli media rəhbərinin, nümayəndəsinin iştirak etdikləri Şuşa Qlobal Media Forumu işğal, 44 günlük İkinci Qarabağ müharibəsi və postmünaqişə dövrünün reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması üçün növbəti tribuna oldu. Dövlətimizin başçısı İlham Əliyevin “Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz. Biz utana biləcəyimiz və ya “bəli, bax, burada biz haqsızıq” deyəcəyimiz heç bir şey etməmişik. Biz hər şeyi düzgün etmişik” açıqlaması ölkəmizə qarşı qərəzli təbliğat aparan, həqiqətləri inkar etməklə Ermənistana dəstək missiyasını yerinə yetirən dövlətlərə, onları təmsil edən mətbu orqanlara tutarlı cavab oldu. Mətbuatın ictimai fikrə təsir imkanlarının genişliyini nəzərə alsaq həqiqətdən uzaq fikirlərin yer aldığı, həmçinin bu və ya digər dövlətin daxili işinə müdaxilə xarakterli materialların dərcinə, verilişlərin hazırlanmasına yol verilməməlidir. Məlum olduğu kimi, qərəzsiz, obyektiv məlumatların ictimaiyyətə təqdim edilməsi mətbuatın əsas missiyasıdır. Bu vəzifələrdən kənar cərəyan edən proseslər həmin mətbu orqanın nüfuzuna kölgə salmaya bilməz. Bu baxımdan Böyük Britaniyanın nüfuzlu media orqanı olan BBC-nin Qarabağla bağlı hazırladığı veriliş Azərbaycan ictimaiyyəti tərəfindən böyük hiddətlə qarşılanıb. Verilişdə iki erməni Qarabağdakı hadisələrlə bağlı danışır. Birtərəflilik əsasında hazırlanan veriliş qərəzin və ədalətsizliyin təqdimatıdır.



Vüqar Rəhimzadə



SİA-nın AZƏRTAC-dan əldə etdiyi məlumata görə, bu fikirləri açıqlamasında “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

O qeyd edib ki, ümumilikdə son vaxtlar BBC telekanalı, o cümlədən bu media qurumunun Azərbaycan xidməti tərəfindən Azərbaycan-Ermənistan münasibətləri, Azərbaycanın Qarabağ iqtisadi rayonunun ermənilər yaşayan hissəsində mövcud vəziyyətlə bağlı qeyri-obyektiv materiallar yayımlanır və qərəzli, həqiqətdən uzaq iddialar irəli sürülür. Bu materiallarda suveren ərazimiz olan Qarabağ bölgəsindəki erməni separatçıları təbliğ edilir. Bu media orqanının yayımladığı veriliş, müəllifin, ümumilikdə isə BBC-nin qərəzini, hadisələrin gərginləşməsində nə qədər maraqlı olduğunu, bu yanaşması ilə Ermənistana yaxınlığını aydın şəkildə nümayiş etdirir.

Baş redaktor onu da qeyd edib ki, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Azərbaycanda yaşayan bütün etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Nə üçün hansısa etnik qrup bu fonda fərqlənməlidir? Azərbaycan əleyhinə təbliğat aparan BBC-nin əsas məqsədi ölkəmizin imicinə zərbə vurmaq, separatçı rejimə dəstək olmaqdır.

Vüqar Rəhimzadə bildirib ki, son illərdə atılan qarşılıqlı addımlar Böyük Britaniya ilə Azərbaycan arasında hazırkı mərhələdə strateji tərəfdaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini təsdiqləyir. Bir dövləti təmsil edən mətbu orqan ölkələr arasında münasibətlərə xələl gətirməli deyil, əlaqələrin daha da möhkəmlənməsinə yönələn addımlara diqqət yetirməlidir. Təbii ki, burada medianın qarşısında dayanan prinsiplər unudulmamalıdır. Bu günün əsas tələbi BBC-nin erməni separatizminin təbliğinə son qoymasıdır.

Baş redaktor diqqəti Azərbaycan Mətbuat Şurasının bununla bağlı bəyanatında da yer alan fikirlərə də yönəldib. Qeyd edib ki, BBC-nin belə dəst-xətti jurnalistika prinsiplərinə aşkar saygısızlıqdır, sivil media dəyərlərinə həqarətdir. Azərbaycan cəmiyyəti hesab edir ki, jurnalistika manipulyativ missiya daşımamalı, azad sözün imkanlarından sui-istifadə yolu tutmamalıdır. BBC və onun Azərbaycan xidməti bu tələbə əhəmiyyətsiz yanaşır, Qarabağdakı separatçılardan qalma tör-töküntülərə tribuna verir, onların söylədiklərini böyük cənfəşanlıqla yayımlayır, nəticə etibarilə qeyri-obyektiv davranaraq, əsl həqiqətləri arxa plana keçirir. BBC-nin bu istiqamətdə yolverilməz fəaliyyəti dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə təhdidi adiləşdirir, normaya çevirir, dünyanın müxtəlif bölgələri üçün də son dərəcə təhlükəli presedent yaradır. BBC-nin müstəqil Azərbaycan reallıqlarına hazırkı yanaşması arzuolunmazdır. Sözügedən media orqanını erməni separatizminin təbliğinə sövq edən nədir? BBC bu hərəkətləri ilə bir qrup erməni daşnaklarının və anti-Azərbaycan qüvvələrin əlində alət olduğunu əməli ilə təsdiqləyir.

# İblis xislətlilər yenə də öz əməllərində

## Yaxud layiq olmadıqları "monopoliya" iddialıları



*Azərbaycan dünyada böyük etimad qazanan ölkə, etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanındıqca müxalif adlanan şər-böhtan yuvasında da əsəblər tarıma çəkilir, antimilli şuranın üzdəniraq sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli, hələ də siyasi mənsubiyyəti bilinməyən Tofiq Yaqublu, ailə münaqişələrin "ulduzu" Fuad Qəhrəmanlı və onların yandaşları Azərbaycan Prezidentinin rəhbərliyi altında qazanılan Qələbəyə kölgə salmağa uğursuz cəhdləri getdikcə artır.*

TƏHLİL

Bəli, qanları bahasına torpaqlarımızı Vətən edən igid oğullarımız 44 gün ərzində haqq yolunda olduğumuzu sübut etdilər. Bütövlüyümüzü bərpa etdik, öz dədə-baba torpaqlarımızı murdarlıqdan, insan cildində olan vəhşi ermənilərdən xilas etdik. Dəmir yumruğumuzla başlarına elə bir yumruq vurduq ki, bellərini sındırdıq, iti qovan kimi qovduq və sübut etdik ki, Qalib Azərbaycan Sərkərdəsi İlham Əliyevin rəhbərliyi ilə güclü ordumuzun, rəşadətli əsgər və zabitlərimizin, xalqımızın birliyi qarşısında paşinyanların sonu ancaq və ancaq it kimi qaçmaq olacaq! Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi: "Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında».

### Qurd dumanlı gün axtaran kimi "Milli Şura"nın dağınıq töküntüləri mənfur niyyətlərini göstərməkdədilər

Qurd dumanlı gün axtaran kimi "Milli Şura"nın dağınıq töküntüləri, Əli Kərimli əksinə, Aprel döyüşlərinin davamı kimi zəfər tariximizə yazılan iyul döyüşlərindən mənfur niyyətləri naminə istifadə etdilər. Vətənə məhəbbətlərini, Milli Ordumuzla, Prezident, Ali Baş Komandan İlham Əliyevlə birlik və həmrəyliklərini xoşməramlı yürüşləri ilə bildirən sağlam ruhlu gənclərin keçirdikləri aksiyadan istifadə edərək yenə də antimilli niyyətlərinə sadiq qaldılar.Uğurlarımıza kölgə salmağa cəhd edən Əli Kərimlinin təxribat yuvası – "Milli Şura", "beşinci kolon", AXCP Vətən müharibəsi dövründə harada gizlənmişdiniz? Antimilli şuraçı Gültəkin Hacıbəyli, nə qədər rəzil qadınsan ki, Qələbəni qeyd edən insanları "trol" adlandırdın, təhqir etdin. Çünki sən erməni yalağısan. Və "sapı özümüzdən olan baltalar", xarici antimilli güclərin "beşinci kalonu" qismində çıxış edən dar düşüncəli, qara təfəkkürlü ünsürlər də ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında iştirak edir, dövlətimizin və xalqımızın milli maraqlarına qarşı çıxırlar. Bir də "beşinci kalon" Azərbaycanda yeni hadisə deyil. Müəyyən sükunətdən və konspirasiyadan sonra üzə çıxmaq, açıq fəaliyyətə keçmək tapşırıqları alan satqınlar, yeriyurdu olmayan, Avropanın zibilliklərində eşələnə, Azərbaycanın uğurlarından qurd basan xainlər, satqınlar, əxlaqsızlardır.

Həmin şou seriyaların birini xatırlatmaq istərdim. Belə ki, "Milli Şura"nın Koordinasiya Mərkəzinin və AXCP Rəyasət Heyətinin üzvü Vahid Məhərrəmli deyir ki, bekarçılıqdı, tema da yoxdu, gəlin biz hökumətdən karantinə görə bu dəfə 500 manat tələb edək, nəyə görə tələb edək, bilirik onsuz verməyəcəklər, amma biz bunu görüntü üçün də olsa ona görə deməliyik ki, xalq da görməlidir ki, biz bu xalqın qayğısını çəkirik, qeydinə qalırıq. Qənimət Zahidov isə etiraf edir ki, "onların işi hökuməti şərləməkdir". Bax, budur onların kimliyi, siması. Xalq hər şeyi görür və bilir. Və bu kimi digər erməni iyi verən satqınlar xalqın gənc üzvlərinə 30 il bundan qabaq baş vermiş hadisələrin mahiyyəti ilə bağlı yalanlar söyləməklə onları çaşdırmaq istəyirlər. Nədir dərdiniz? Nə etsəniz də sonda elə yana-yana qalacaqsınız. Çünki Azərbaycan cəmiyyəti AXCP-"Milli Şura"-"beşinci kalon" kimi mayası xəyanətdən yoğrulmuş zərərli tendensiyalara çoxdan yox deyib!.

**RƏFİQƏ HÜSEYNOVA**

# Benzinin qiymətində artım olacaq?



"Sosial şəbəkələrdə benzinin qiymətinin artacağı ilə bağlı yayılan məlumatların heç bir iqtisadi əsası yoxdur". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib. Onun sözlərinə görə, Ai-92 markalı benzinin qiymətini Tarif Şurası tənzimləyir: “Lakin hazırda nə neftin qiymətində ötən illərə görə bahalaşma var, nə də iqtisadi mühitdə benzinin qiymətinin artmasına səbəb olacaq qeyri-adi dəyişikliklər baş verir.

Hətta Ai-95 markalı benzinin qiyməti qonşu ölkələrdəki qiymətdən artıqdır. Ai-92 markalı benzinin qiyməti isə bazar vəziyyətinə uyğundur. Buna görə də hər hansı qiymət artımına gediləcəyini zənn etmirəm”.

*Səbinə Hüseynli*

**İQTİSADÇI DANIŞDI**

# Dünyanın gözü Soçidə



## Ərdoğanla Putin arasında gözlənilən kritik, baş tutan səmimi görüş

***Nəhayət gözlənilən görüş baş tutdu. Rusiya Prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında Soçidə tarixi görüş keçirildi. İki lider arasında aparılan müzakirələr 1 saat yarım davam edib. İki ölkə liderləri BMT-nin yeni şərtlərinə uyğun olaraq "Taxıl sazişi"nin bərpası da daxil olmaqla Cənubi Qafqaz, Suriya və Ukrayna müharibəsini də müzakirə ediblər.***

Məlumata görə, BMT-nin əsas təkliflərindən biri Avropa tərəfindən Rusiyanın qida istehsalçılarına qoyulan məhdudiyyətlərin aradan qaldırılmasıdır. V.Putin və R.T.Ərdoğan arasında keçiriləcək danışıqlarda Qətərin iştirakı ilə Rusiya taxılının Türkiyə üzərindən Afrikaya çatdırılması variantı da müzakirə olunub. Bundan əlavə, görüşdə Rusiyanın təbii qazının Türkiyə vasitəsilə Rusiyadan Avropaya nəqli məsələsi də danışıqlar masasında olub.

Məlumata görə, Rəcəb Tayyib Ərdoğanı vitse-prezident Cevdet Yılmaz, İstanbulun valisi Davut Gül yola salıb. Onu Türkiyənin xarici işlər naziri Hakan Fidan, texnologiya naziri Mehmet Fatih Kaçır və başqa rəsmilər müşayiət edib.





Qeyd edək ki, 2022-ci il iyul ayında Türkiyə, Rusiya, Ukrayna və BMT-nin iştirakı ilə "Taxıl sazişi" imzalanıb. Sənədin müddəti bu il iyulun 17-də başa çatıb və Moskva sazişdə iştirakını dayandırıb. BMT Təhlükəsizlik Şurasının iyulun 21-də keçirilən iclasında əksər ölkələr Rusiyanı "Taxıl sazişi"nin müddətini uzatmağa çağırıb. Avqustun 31-də Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrovla türkiyəli həmkarı Hakan Fidan "Taxıl sazişi" barədə fikir mübadiləsi aparıblar. H.Fidan həmin görüşdən sonra BMT-nin "Taxıl saizişi" ilə bağlı yeni təkliflər hazırladığını bildirmişdi. İnformasiyaya əsasən, sammitin gündəliyinin ən əsas məsələsi "Taxıl sazişi"dir. Məlumata görə, BMT-nin əsas şərtlərindən biri Avropanın Rusiyanın qida istehsalçılarına qoyulan məhdudiyyətlərin aradan qaldırılmasıdır.

Soçidə "Rus" sanatoriyasının "İmperial" binasının yaşıl zalında Rusiya prezidenti Vladimir Putinlə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüş geniş tərkibdə 1,5 saat davam edib. Onlayn yayımlanan görüşün əvvəlində Putin Ərdoğanı yenidən prezident seçilməsi münasibətilə şəxsən təbrik edib. Rusiya lideri həmçinin Ərdoğanla regional təhlükəsizlik məsələlərini, o cümlədən Ukrayna məsələsini müzakirə etmək niyyətində olduğunu təsdiqləyib. Bundan əlavə, Putin Rusiyanın bu ilin iyulunda dayandırılmış taxıl sazişinin mümkün bərpasının müzakirəsinə açıq olduğunu bildirib. Ərdoğan əlavə edib ki, "bütün dünya"nın diqqəti taxıl müqaviləsinə dikilib.

Rusiya dövlətinin başçısı həmçinin bildirib ki, Rusiya Federasiyası zəlzələlər və meşə yanğınları zamanı Türkiyəyə ilk dəstək verənlərdən olub. Vladimir Putin Türkiyədə qaz qovşağının yaradılması ilə bağlı danışıqların yaxın vaxtlarda yekunlaşacağını da bildirib.

Rusiya prezidenti Vladimir Putin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla geniş tərkibdə danışıqlardan sonra türkiyəli həmkarı ilə işgüzar naharda dar tərkibdə görüşü davam etdirib. Nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra söhbət işgüzar səhər yeməyi formatında təkbətək davam edib.

Kremlin sözçüsü Dmitri Peskov Rusiya və Türkiyə liderləri arasında geniş tərkibdə danışıqların çox konstruktiv keçdiyini bildirib: "Çox konstruktiv, müxtəlif istiqamətləri əhatə edən mövzuların müzakirə edildiyi görüş oldu. Nazirlər, işçi qrup rəhbərləri ətraflı məruzələr etdilər. Tam məlumat mübadiləsi oldu".

Rusiya prezidenti Vladimir Putinlə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşündən sonra hər hansı sənədin imzalanması planlaşdırılmır. Bunu jurnalistlərə Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov dövlət başçılarının geniş tərkibdə danışıqlarından sonra deyib. Peskovun sözlərinə görə, görüşdə "tam məlumat mübadiləsi" gedir. Amma Rusiya-Türkiyə danışıqları bununla bitmir. Putin və Ərdoğan ünsiyyəti davam etdirəcək, lakin axşam yeməyində daha dar bir dairədə olacaqlar.

Prezident Ərdoğan və Rusiya prezidenti Vladimir Putin Soçidə keçirdikləri mətbuat konfransında müzakirə edəcəkləri məsələlərlə bağlı qısa açıqlama veriblər. Dünyanın izlədiyi mətbuat konfransında danışan Putin "Seçkilərdən sonra ilk dəfə üz-üzə görüşürük. İki ölkə arasında ticarət dövriyyəmiz artır. Enerji sahəsində əlaqələrimiz sürətlə inkişaf edir. Biz Ukrayna böhranı və taxıl dəhlizindən danışacağıq".



İki ölkə arasındakı əlaqələrə və kritik danışıqlar çərçivəsində taxıl dəhlizinə də toxunan Ərdoğan, "Sinop atom elektrik stansiyası ilə də bir addım atmalı olacağıq. Təbii ki, Trakyada bir Hub olması da zənginliyin və canlılığın başqa bir elementidir. Türkiyə ilə Rusiya arasında atılan ən mühüm addımlardan biri də turizmdir. Rusiya bizim üçün turizmdə bir nömrədir. Ən vacib addım odur ki, bu gün Türkiyə-Rusiya səfəri zamanı hamı taxıl dəhlizinə baxır. Bu gün nə çıxacağını gözləyirlər. İnanıram ki, görüşlərimizin sonunda mətbuat konfransında veriləcək mesaj dünyaya, xüsusən də inkişaf etməmiş Afrika ölkələrinə doğru bir addım olacaq".

Ankara ilə Moskva arasındakı ticarət əlaqələrinə də toxunan Ərdoğan, "Türkiyə ilə Rusiya arasındakı münasibətlərdə indiki xarici ticarət həcmimizin 62 milyard dollar olması və 100 milyard dollarlıq hədəfə doğru getdiyimiz üçün çox xoşbəxtik. Hesab edirəm ki, Mərkəzi Bank prezidentlərimizin bir araya gələrək bir-biri ilə danışması ikitərəfli münasibətlərimizdə milli valyutaya addım atmaq baxımından da önəmlidir".

Görüş ərəfəsində maraqlı anlar da yaşanıb. Prezident Ərdoğanı qapıda qarşılayan Putin Ərdoğandan səfərinin necə keçdiyini soruşub. Səfərin yaxşı keçdiyini deyən Ərdoğan, "Artıq 1 saat 15 dəqiqə çəkir. Daha sonra Putin Ərdoğana "O zaman gələn dəfə bizə tətilə gəl" cavabını verib. Ərdoğan Rusiyanın çox gözəl olduğunu bildirib. İki liderin səmimi dialoqu kameralara düşüb, daha sonra iki lider təkbətək görüş keçirib.

**V.SALAH**

# Erməni vandallarının köhnə metodu



## Azərbaycan səfirliklərinə hücum həmin ölkələrlə etimad mühitinə zərbə vurur

**Son zamanlar bir sıra ölkələrdə ermənilər Azərbaycan səfirliyinin qarşısında təxribatlar törətməyə çalışırlar. Xüsusilə İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri bir neçə dəfə radikal qrupların hücumuna məruz qalıb. Hələ ötən il Böyük Britaniyadakı səfirliyimiz dini radikalların hücumuna məruz qaldıqdan bir müddət sonra Azərbaycanın Livan, Fransa və ABŞ-dakı səfirlikləri qarşısında erməni təxribatları törədildi. Məsələn, Livanın paytaxtı Beyrutda bu ölkənin erməni vətəndaşları Azərbaycan səfirliyinin önünə toplaşmaq və təxribat törətmək istəyərkən yerli polislə toqquşma baş verib. Əvvəlcədən planlaşdırılmış və 1000-dən çox ermənin iştirak etdiyi təxribata cəhd “Daşnaksütyun” və “Hnçak” partiyalarının çağırışı ilə törədilmişdi. Azərbaycan əleyhinə şüarlar səsləndirən və səfirliyin binasına daxil olmaq istəyən ermənilər onların qarşısında sədd çəkmiş Beyrut polisinə hücumlar ediblər. Polis əməkdaşları təxribatın qarşısını almaq məqsədilə müəyyən tədbirlər görmüşdü.**

Fransada da erməni vandalları Azərbaycanın bu ölkədəki səfirliyinə basqın etməyə çalışmışdılar. Amma Fransanın hüquq-mühafizə orqanları səfirliyin binasının mühafizəsini lazımınca təşkil etməmişdilər. Bundan istifadə edən ermənilər əvvəlcə səfirliyin qarşısındakı dəmir maneələri aşırımış, sonra isə binanın giriş qapısını sındırmağa, içəri daxil olmağa çalışmışdılar. Ermənilərin qanunsuzluğunu əks etdirən videogörüntülərdə yerli hüquq-mühafizə orqanları əməkdaşlarının erməni vandalizminin qarşısını almaq üçün heç bir tədbir görmədiyi əks olunub.

Bu günlərdə Azərbaycanın Livandakı səfirliyi qarşısında növbəti təxribat törədilib. Aksiya keçirən 50-yə yaxın erməniəsilli şəxslər səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri səfirliyin inzibati binasına atıblar. Bu barədə Xarici İşlər Nazirliyindən bildirilib. Qeyd olunub ki, hücum nəticəsində səfirliyin heyəti xəsarət almayıb. Həmçinin, hadisə barədə diplomatik nümayəndəliklərin mühafizəsinə cavabdeh olan quruma məlumat verilən kimi hüquq-mühafizə orqanları hadisə yerinə gəlsələr də, həmin vaxt təxribatçılar ərazidən uzaqlaşmağa müvəffəq olublar: ”Səfirliyə qarşı törədilən bu hücumla əlaqədar cinayətkarların aşkarlanması və həbs edilməsi məqsədilə Livanın Xarici İşlər Nazirliyinə müvafiq nota təqdim edilib və aidiyyəti üzrə tədbirlər həyata keçirilir. Hazırda səfirliyin mühafizəsi daha da gücləndirilib və törədilmiş cinayətlə bağlı araşdırma aparılır”.

Qeyd edək ki, özündə vandalizm və terror elementlərini ehtiva etməklə bu hücumlar diplomatlara, onların mülklərinə xəsarət yetirmək məqsədini güdür, beləliklə də cinayət məsuliyyəti doğuran əməllər kimi səciyyələndirilir. Onlar bu yolla radikal mövqelərini nümayiş etdirməklə yanaşı, həm də sülhə qarşı çıxdıqlarını göstərirlər. Məlumdur ki, hazırda Azərbaycanla Ermənistan arasındakı münasibətlərdə həssas mərhələdir. Tərəflər arasında yekun sülh müqaviləsinin imzalanması əsas mövzudur. Əlbəttə, bunu istəməyən radikal qüvvələr var. Müxtəlif ölkələrdəki səfirliklərimizə hücum həm də etimad mühitinə zərbə vurulmasına xidmət edir. Səfirliklərimizin mühafizəsinin lazımi səviyyədə təmin edilməməsi belə rəy yaradır ki, həmin ölkələr də Cənubi Qafqazda “suların durulmasında” maraqlı deyillər. Bundan əlavə, cəzasızlıq mühiti də radikal erməni qruplarını yeni təxribatlara əl atmağa cəsarətləndirir. Avropa paytaxtlarında və Amerikanın bir sıra şəhərlərində Azərbaycan diplomatik nümayəndəliklərinə, həmçinin azərbaycanlı icma üzvlərinə qarşı edilən hücumlarla bağlı açılan cinayət işləri çərçivəsində heç bir təqsirkar məsuliyyətə cəlb edilməyib. Eyni zamanda, həmin səfirliklərimizə hücum edənlərin sonrakı aqibətlərinin necə olduğu və yaxud da yaşadıqları ölkənin hüquq-mühafizə orqanları qarşısında hansısa cavabdehlik məsuliyyəti daşıyıb, daşımamaları ilə bağlı ictimai məlumatlandırma kampaniyasına da rast gəlmək mümkün deyil. Gələcəkdə analoji hadisələrin baş verməməsindən ötrü mütləq zəruri tədbirlər həyata keçirilməlidir: təxribatı törədənlər, bu işlərdə əli olanlar məsuliyyətə cəlb edilməli və səfirliklərimiz lazımi səviyyədə qorunmalıdır.

Xatırladırıq ki, Azərbaycanın 1992-ci ildən üzvü olduğu “Diplomatik əlaqələr haqqında” 1961-ci il Vyana Konvensiyasına əsasən, diplomatların yerləşdiyi səfirlik binaları toxunulmazdır və bu statusa malik ərazinin təhlükəsizliyini təmin etmək ev sahibi olan ölkənin öhdəliyi və borcudur. Azərbaycan dövləti bu konvensiyadan irəli gələn bütün tələbləri yüksək səviyyədə yerinə yetirir. Belə ki, ölkəmizdəki 65 səfirlik, 4 baş konsulluq və 11 fəxri konsulluq ən yüksək səviyyədə qorunur və onlar özlərinə qarşı hər hansı bir təhdid-təzyiq hiss etmirlər.

***Sevinc Azadi***

# “Təxribatçı hərəkət BBC-nin imicinə böyük ləkədir”

***“Bu cür təxribatçı hərəkət BBC kimi nüfuzlu bir xəbər agentliyinin imicinə çox böyük ləkədir. Məsələni araşdırmadan hansısa bir ölkə haqqında yalan məlumat yaymaq heç də ona yaraşan bir addım deyil. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda Ermənistanın rəsmi dairələri və xaricdəki erməni diasporu dairələri bizə qarşı separatizmi dəstəkləyirlər". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.***



DEPUTAT MÜNASİBƏT BİLDİRDİ




Deputat sözlərinə davam edərək bildirib ki, onlar Azərbaycanın Qarabağ iqtisadi zonasında gedən prosesləri dünyaya təhrif olunmuş şəkildə çatdırmağa çalışırlar: ”Heç bir problem olmadığı halda Laçın dəhlizi və Qarabağda yaşayan ermənilərin humanitar böhran yaşadığı barədə yalan fikir formalaşdırmağa çalışılır. Azərbaycanın mövqeyi göz qabağındadır. Ağdam-Əskəran yolunda ərzaqla dolu Azərbaycanın yük maşınları dayanaraq rus sülhməramlıları ilə danışıqlar aparır”.

”Laçın dəhlizi açıq fəaliyyət göstərir. Ermənilərin hər iki tərəfə gediş-gəlişi üçün hansısa bir problem yoxdur. BMT TŞ-da Laçın dəhlizi ilə bağlı aparılan müzakirələrdə Şuranın əksər üzvləri Azərbaycanın ədalətli mövqeyini müdafiə etdilər. BBC-nin iki ermənini efirə çıxardaraq Azərbaycan haqqında yalan yaymasının arxasında ya siyasi təxribat, ya da sadəcə olaraq maddi maraqlar durur. Təəssüf ki, BBC buna uydu. Əlbəttə ki, Azərbaycan özünə qarşı olan bu cür təxribat qarşısında heç vaxt sakit dayana bilməz”,- deyə o əlavə edib.

***Ləman***

# Analıq məzuniyyətinə çıxmaq prosesi necə olmalıdır?

***“Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü ) müddətində ödənişli məzuniyyət verilir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Vüqar Tumasov deyib.***

HÜQUQŞÜNAS AYDINLIQ GƏTİRDİ



Onun sözlərinə görə, doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir: ”Uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa üzvü uşağın üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdir. Yəni, qadın uşağın 3 yaşına kimi işə çıxmaya bilər. Onu həmin müddətdə işdən heç kim azad edə bilməz”.

Hüquqşünas sözlərinə davam edərək bildirib ki, həmin işə yerinə yalnız müqavilə ilə kimisə götürmək olar: ”Həmin xanım işə qayıdan kimi onun yerinə çıxan şəxs işdən azad olunur: ”Əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərdən biri də hamilə xanımlardır. işə götürən tərəfindən hamilə, habelə üç yaşınadək uşağı olan qadınların, üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərin işə götürən tərəfindən əmək müqaviləsinin ləğvi qadağandır”.

***L. Sərraf***





# Beyin ölümü, vegetativ həyat, yoxsa orqan bazarı?

Orqan köçürülməsi bir insanın orqanının bir qismi və ya hamısının həyati funksiyasını itirmədiyi təqdirdə ikinci bir şəxsə köçürülməsi deməkdir. Yetkinlik yaşına çatmış istənilən şəxs öz orqanını başqasına bağışlaya bilər. Orqanları sağlam olan istənilən şəxs öz bərpaedilən orqanlarını bağışlayaraq bir çox insanın həyatını qurtara bilər.

Dünyada hər il orta hesabla 120-121 min orqan transplantasiyası həyata keçirilir. 2022-ci ildə dünyada orqan köçürülməsi əməliyyatlarının sayı əvvəlki illərə nisbətən 30% artıb. Lakin iddia edilir ki, əslində, rəqəmlər etiraf ediləndən dəfələrlə böyükdür. Həmçinin, dünyada orqan transplantasiyası adı altında gizlədilən orqan ticarətinin qlobal dövriyyəsi inanılmaz rəqəmlərlə ölçülür.





### Tarixin ilk orqan köçürməsi: harada və necə?

Tibb tarixinə görə orqan nəqli ilk dəfə miladdan öncə V əsrdə reallaşdırılıb. Orqan köçürülməsinin yeni tarixi isə XVII əsrdə yazılıb. Həmin əsrdə ilk dəri nəqli həyata keçirilib, XX əsrin başlanğıcında isə ilk dəfə heyvanlar üzərində orqan nəqli həyata keçirilib. 1912-ci ildə fransız həkim Aleksis Karrel toxuma nəqli sahəsində uğurlarına görə Nobel Tibb Mükafatını alıb.

İlk böyrək transplantasiyası isə 1933-cü ildə macar həkim Voronoy tərəfindən həyata keçirilib, amma bədən böyrəyi qəbul etmədiyi üçün xəstə ölüb. 1942-ci ildə ingilis zooloq Piter Brayn sübut etdi ki, bunun səbəbi immunitet sistemidir. 1944-cü ildə isə holland həkim Villem Kolf tərəfindən "dializator" adı verilən süni böyrək yaradıldı, bu böyrəyin sayəsində böyrək xəstəsi olan insanlar yaşaya bilirdi.

Tibb tarixində ən uğurlu orqan transplantasiyasını 1954-cü ildə Çikaqoda Cozef Murray həyata keçirdi. Orqanını bağışlayan xəstənin əkizi idi, buna görə də bədən yeni böyrəyinə tez alışdı. Təxmini hesablamalara görə, bu günə qədər bütün dünyada yarım milyondan artıq böyrək köçürülüb.

### Azərbaycanda orqan transplantasiyasının yarım əsr tarixi var

Azərbaycanda ilk orqan transplantasiyası əməliyyatı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. O Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə olaraq hələ 52 il əvvəl, 1971-ci il martın 4-də pasiyentinə böyrək köçürüb. Elə bu nailiyyətinə görə də 1974-cü ildə SSRİ dövlət mükafatına layiq görülən akademik 1983-cü ilə kimi Azərbaycanda 30-a yaxın böyrəkköçürmə əməliyyatı həyata keçirib.

Mövcud qanunvericiliyə əsasən, ölkəmizdə yalnız M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası, Mərkəzi Gömrük Hospitalı, Akademik Zərifə Əliyeva adına Elmi-tədqiqat Oftalmologiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanası, Mərkəzi Klinika, Respublika Müalicəvi Dioqnostika Mərkəzi, Respublika Talassemiya Mərkəzi, Azərbaycan Tibb Universitetin Tədris-Cərrahiyyə Klinikası transplantasiya əməliyyatı keçirməyə ixtiyar qazanıb.

### İnsandan insana orqan payı

Bir insandan digərinə köçürüləcək orqanlar ürək, ağ ciyər, böyrəklər, qara ciyər, mədəaltı vəzi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kornea təbəqəsi ola bilər. Aparılan araşdırmalar nəticəsində bildirilir ki, insan tamamilə öldükdən sonra köçürülməyə yararlı tək orqanı gözün buynuz qişasıdır. Beyin ölümü reallaşan, əslində, hələ həyatda olan insandan orqan köçürülməsi məsələsi isə olduqca mübahisəlidir.

"Beyin ölümü" adlandırılan diaqnozun özü də şübhəli məqamlar ehtiva edir. Həkimlər, beyin ölümü diaqnozu qoyduqları xəstə hələ həyatda ikən orqanlarını götürə, dolayısı ilə ölümünə səbəb ola bilərlər. Bu diaqnozun mövcudluğundan qlobal orqan mafiyasının istifadə etməsi və dünyada orqan ticarətinin dövriyyəsinin fantastik rəqəmlərlə ölçülməsi barədə iddialar var.

Bir çox ölkədə orqan bağışlanması faizini artırmaq üçün (dolayısı ilə orqan ticarətini çiçəkləndirmək üçün) bağışlayanlara və ailələrinə bəzi imtiyazlar verilir. Məsələn, Amerikada orqan bağışlanmasını artırmaq məqsədilə xüsusi vergi endirimləri tətbiq olunur.

### Qanunlarımız nə deyir?

2020-ci ildə Milli Məclisdə, III oxunuşda qəbul edilən "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində canlı donordan orqanın götürülməsi qaydası və şərtlərinə görə digər tibbi üsullarla və meyit orqanları vasitəsi ilə insan həyatının xilas edilməsi və ya sağlamlığının bərpası mümkün olmadıqda resipiyentə canlı donordan orqanların transplantasiyasına yol verilir.

Canlı donordan resipiyentə transplantasiyanın həyata keçirilməsinin mümkünlüyü, tərkibində ixtisaslı həkimlərin iştirak etdiyi həkim komissiyasının qərarı ilə, tibbi müayinə nəticələri, o cümlədən tibbi göstəriş olarsa, gen və toxuma tipləşdirməsi nəticələri əsasında müəyyən edilir.

Canlı donordan orqanların götürülməsi zamanı donorun resipiyentin qohumu olduğu hallarda, qohumluq əlaqəsi müvafiq sənədlərlə təsdiq olunmalıdır. Canlı donor nəzərdə tutulan cərrahiyyə əməliyyatı ilə bağlı sağlamlığı üçün baş verə biləcək ağırlaşmaların mahiyyəti ilə tanış olmalıdır. Canlı donor orqanların götürülməsinə kənar təsirlər olmadan, könüllü şəkildə qərar verdiyinə dair yazılı şəkildə məlumatlandırılmış razılığını bildirməlidir. Hər hansı şəxsi orqanların götürülməsinə məcbur edənlər qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

Layihədə həmçinin transplantasiya obyekti olan orqan və toxumaların siyahısı müəyyənləşib. Belə ki, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər.

Meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kök hüceyrələr və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və toxumalar götürülə bilər.

### Beyin ölümü, yoxsa vegetativ həyat?

Lakin donorun orqanlarının götürülməsi üçün həmin şəxs tibbi cəhətdən ölmüş olmalıdır. Tibb elmi beyin ölümü reallaşanda xəstəni ölmüş hesab edir. Lakin şüuru qapalı şəkildə həyata davam etməyin bir yolu da vegetativ həyatdır. Belə xəstələr nəfəs alırlar, ancaq şüurları sağlam insanların şüurları kimi işləmir. Vegetativ həyat tibbi ölüm deyil. İnsanın şüuru açıq və ya tənəffüs aparatına bağlı olmasa belə, həmin şəxs vegetativ vəziyyətdədirsə, o hələ yaşayır, həmin adamın orqanları çıxarılmır.

Beyin ölümü qərarı kardioloqlar, nevroloqlar, neyrocərrahlar və anestezioloqlardan ibarət bir həkim qrupu tərəfindən verilir. Hər bir mütəxəssis fərdi olaraq xəstəni qiymətləndirir. Beyin ölümü diqanozu qoyularsa bu şəxs donor namizədi ola bilər. Lakin dünyada beyin ölümü gerçəkləşən xəstələrin yalnız gözün buynuz qişası donorluğu üçün yararlı olduğu barədə ciddi tədqiqatlar aparılır. Bu da önümüzə bir sual işarəsi qoyur: "Bəlkə vegetativ həyatda olan pasiyentlərə "beyin ölümü reallaşıb" diqnozu qoyub orqanlarını alırlar?".

Azərbaycan Respublikasında ksenotransplantasiya (elmi-tədqiqat işləri istisna olmaqla) da qadağandır. Ksenotransplantasiya insan orqanlarının heyvana, yaxud heyvan orqanlarının insana köçürülməsidir.

*Lalə Mehralı*

ARAŞDIRMA

# AXCP Ali Məclisinin toplantısı yeni qarşıdurmanın əsasını qoydu

ANALİZ

***Xalqdan ayrı düşən dağıdıcı müxalifət partiyaları daxilində ziddiyyətlər, qarşıdurmalar ara vermir. Bir növ səngiməyən gərgin situasiya dağıdıcı düşərgənin reallıqlarını əks etdirir. Nəticələr isə, düşərgə liderləri üçün arzuolunan deyil. Funksionerlərarası qarşıdurmalara etiraz edən sıravi üzvlər partiyalardan istefa verirlər və ya digər siyasi təşkilatlara transfer olunurlar. Daha çox təlatümlü durum Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-də hökm sürür. Ə.Kərimlinin özəl firması kimi fəaliyyət göstərən AXCP-də cəbhəçilər təzyiqlərə, təhdidlərə məruz qalır, bəzən də müxtəlif formalarda jantaj olunurlar. Mənəvi terrorun qurbanı olanlar çıxış yolunu AXCP sıralarını tərk etməkdə görürlər. Bu baxımdan demək olar ki, AXCP-də istefalar adi hala çevrilib.***




### Əli Kərimli Ali Məclisin toplantısı adı altında növbəti şou təşkil etdi

Hazırkı reallıqlar onu göstərir ki, AXCP qarşıdakı müddətdə ciddi parçalanmaya məruz qalacaq. Çünki Ə.Kərimlinin istəyi və iradəsi əsasında keçirilən Ali Məclisin toplantısında cəbhəçilərin maraqlarına zidd qərarlar qəbul olunub, təyinatlar aparılıb. Ə.Kərimli isə toplantını elə təqdim edir ki, sanki beynəlxalq miqyaslı böyük bir toplantı təşkil edib və həmin toplantıda dünya siyasətinə təsir edə biləcək qərarlar qəbul edilib: “Bu gün AXCP Ali Məclisinin sessiyasında 7 saat ərzində 3 dəfə gizli səsvermə ilə seçki keçirmişik. Əvvəlcə gizli və alternativli səsvermə yolu ilə 20 nəfər partiya fəalı Ali Məclisə (rayon şöbələrindən seçilmiş 64 nəfərə əlavə olaraq) üzv seçiliblər. Sonra gizli və alternativli səsvermə ilə professor Nurəddin Məmmədli Ali Məclisin sədri seçilib. Ali Məclis mənim təqdimatımla professor Kamil Vəlini, Seymur Həzini, Fuad Qəhrəmanlını, Səadət Cahangiri və Ayaz Məhərrəmlini AXCP sədrinin müavinləri olaraq təsdiq edib. Professor Elmira Muradəliyeva və İradə Əliyeva Ali Məclisin sədr müavinləri, Məmməd İbrahim isə Ali Məclisinin katibi seçiliblər. Bu şəxslər həm də AXCP Rəyasət Heyətinə üzv seçiliblər. Bundan sonra Ali Məclis daha bir gizli səsvermə keçirib və Rəyasət Heyətinə daha 13 nəfər üzv seçib. Beləliklə, AXCP Ali Məclisi Rəyasət Heyətinə 22 nəfər üzv seçilib”. AXCP-dəki başı pozuq dəstənin anlaqsız vəziyyətdə olan üzvlərində Seymur Həzi isə iddia edir ki, guya onlara məclisin toplantısının keçirilməsi üçün yer ayrılmayıb: “Dünən AXCP Ali Məclisi növbəti toplantısı keçirildi. Dəfələrlə etdiyimiz müraciətə baxmayaraq yer verilmədiyi üçün toplantını həyət evində keçirməli olduq. Əslində, bu şəraitdə toplantı keçirilməsi hakimiyyətin AXCP-yə olan münasibətini göstərirdi. Ölkənin ana müxalifət partiyasına adi bir toplantı üçün yer verilmir. Budəfəki Ali Məclisin gündəliyində duran əsas məsələ son qurultaydan sonra təşkilatın rəhbər heyətini formalaşdırmaq idi. Demək olar ki, bu proses çox uğurla həyata keçirildi”.

### Cəbhəçilər Nurəddin Məmmədlini baykot edir

Fakt ondan ibarətdir ki, Bakı Şəhər İcra Hakimiyyəti AXCP-yə Ali Məclisin toplantısının keçirilməsi üçün yer ayırsa da, Ə.Kərimli özünə yeni təyin etdiyi müavini Kamil Vəlinin bağ evində toplantını keçirib, əgər ona ciddi toplantı demək mümkündürsə. Əvvəla ona görə ki, toplantıda məclis üzvlüyünə namizədlər tam şəkildə iştirak etməyiblər. İkincisi, say komissiyası yaradılmayıb. Üçüncüsü, müavinlər və Ali Məclis üzvləri Ə.Kərimlinin əvvəlcədən müəyyənləşdirdiyi siyahı üzrə keçirilib. Əsas iddialılardan olan Yadigar Sadıqov, Sahib Kərimli, Aydın Əliyev və digərləri toplantıya dəvət olunmayıblar. Bu da ondan xəbər verir ki, Ə.Kərimli narazı şəxsləri əvvəlcədən neytrallaşdırmağı bacarıb. Əgər partiya daxilindəki narazı müxaliflər Məclisin toplantısına dəvət olunsaydılar, Ə.Kərimli heç də asanlıqla istəyini həyata keçirə bilməzdi. Yəni, ona direniş göstəriləcəkdilər. Bu olmadığından rüsvayçı qurultaydan sonra Ali Məclisin ilk toplantısı qeyri-demokratik, partiyanın əsasnaməsinə zidd, eyni zamanda, “Siyasi partiyalar haqqında qanunun” tələblərinin kobud şəkildə pozulması ilə keçirilib. Ə.Kərimli gözlənildiyi kimi nəinki AXCP-də, ümumilikdə müxalifət düşərgəsində lağ obyekti olan və “iki dəfə Azərbaycan professoru” olaraq təqdim olunan Nurəddin Məmmədlini yenidən AXCP Ali Məclisin sədri təyin edilib. Bu təyinat AXCP daxilində bomba effekti yaradıb. Hər kəs sosial şəbəkələrdə Ə.Kərimlinin təyinatını kəsgin tənqid, edib onu N.Məmmədli kimi bivecin məclis sədri təyin etməsini cəbhəçilərə hörmətsizlik kimi dəyərləndirirlər.

### İ.Hüseynli Ə.Kərimlini peşman etmək üçün mübarizəyə başlayacaq

Bəziləri belə bir fikir qeyd edirlər ki, N.Məmmədiliyə qarşı total hücumların arxasında AXCP-dəki trol dəstəsinin rəhbəri İlham Hüseynlinin və “Milli Şura”nın üzvü Gültəkin Hacıbəylinin dayandığını qeyd edirlər. Hər iki trol Ali Məclis sədrliyinə iddialı idilər və bu yöndə özlərinin təbliğatlarını aparırdılar. G.Hacıbəyli ilə müqayisədə trolbaşı İ.Hüseynli özünü məclis sədrliyinə daha şanslı hesab edirdi. Çünki G.Hacıbəyli AXCP üzvü deyildi, ikincisi isə cəbhəçilərin böyük əksəriyyəti G.Hacıbəyliyə inanmır və hələ də onu qazan dibi yalayan məxluq hesab edirlər. İ.Hüseynli isə trolbaş olduğundan və hər zaman Ə.Kərimlinin tapşırıqlarını yerinə yetirdiyindən məclis sədri ola biləcəyini ehtimal edirdi. Lakin Ə.Kərimli onun arzusunu ürəyində qoydu və iki dəfə Azərbaycan professoru N.Məmmədlini məclis sədri təyin etdi. Təbii ki, gözləmədiyi şapalağın şokundan İ.Hüseynli uzun müddət özünə gələ bilməyəcək. Lakin günün birində ayılacaq və təhqirə cavab olaraq Ə.Kərimlini peşman etmək üçün mübarizəyə başlayacaq. AXCP Rəyasət Heyətinə və Məclis üzvlüyünə seçilə bilməyənlər də trolbaşı İ.Hüseynin dəstəsinə qoşularaq Ə.Kərimlini zərərsizləşdirmək üçün fəaliyyətə başlayacaqlar. Bütün bunlar isə AXCP-də yeni və həlledici qarşıdurmanın baş verəcəyindən xəbər verir.

***İ.ƏLİYEV***

# Xirtdəyin qovuşsun, ağzın yara töksün!

***Deyirəm ki, gəlin küçədə gedərkən başımızı aşağı dikməyək. Avtobusda, metroda, taksidə əyləşməyək, ayaq üstündə qalaq. Səbir gəldimi, qıçımızı qırıb oturaq evimizdə, amma nə çarə ki, məni eşidib, dinləyən, riayət edən yoxdur.***



Axı ataların da bir gözəl nəsihəti var, deyir, evdən çıxdın, təkmi, cütmü, səbir gəldimi, dayan, getmə. Biz nə edirik, ataların bu nəsihətamiz kəlamını qulaq ardına vururuq. Belə olanda isə deməli, özümüz qədrimizi bilmirik, qədrimiz kənardan bilinir. Və deyir ki, əşi, dur da, getmə.

Hə, indi siz nə deyirsiniz, nə edək?

Mənsə siz də deyəcəksiniz ki, yolda başımızı yerə dikməyək. Nəqliyyat vasitələrində əyləşməyək, səbir gələndə bayıra çıxmayaq. Bunun başqa çarəsi yoxdur.

Axı bir də ki, başımızı nə üçün yerə dikməliyik. Məgər utanılacaq bir iş etmişik? Nədi-nədi ki, ötən əsrin axırlarında atalarımız deyib ki, qadın qismi yolda-rizdə başını aşağı dikər. Nə üçün? Nə üçün yoldan keçənlərə deyil, maşınlara, mağazalara, qarşıdan gələnin gözünün içinə, yandan ötənin geyiminə-keçiminə yox, məhz yerə baxmalıyıq? Görəsən atalarımız bunu deyəndə nə düşünüblər? Maraqlıdır, məhz yerə.

Axı yerə baxıb nə görəcəksən? Bircə onu görəcəksən ki, azar vurmuş kişilərdən hansısa bir lomba tüpürüb yerə, keçib gedib. Sən də göyə, yana-yörəyə yox, yerə baxanda, ondan başqa bir şey görməyəcəksən, yediyin-içdiyin burnundan fitil-fitil töküləcək. Deyinə-deyinə gedəcəksən. Deyəcəksən ki, səni görüm xirtdəyin qovuşsun, tüpürməyə yer tapmırsan?

Kənardan da görəcəklər ki, öz-özünə danışırsan, deyəcəklər ki, yazığın başı pozulub; ya dəlidir, ya da o birisindən...

Digər məsələ, çox vacibdir ki, ictimai nəqliyyatda əyləşəsən? Dur da ayaqlarının üstündə. Məgər ağrın-acın var, qocalmısan, yoxsa xəstəsən? İki addımlıq yolda nə üçün əyləşirsən ki?

Əyləşərsən, qalxa bilməzsən, ağlın başına gələr. Sən duracaqsan, ilahi bir qüvvə səni yerə çəkəcək. Qapılar açılacaq, camaat qatardan çıxıb gedəcək, qapılar bağlanacaq. Sən yerində qurcalana-qurcalana qalacaqsan. Camaat avtobusdan enəndə sən əyləşdiyin yerində sayacaqsan. Nədi-nədi ki, ya xanımlardan, ya da “mədəni” kişi və xanımların tərbiyə verdiklərindən biri ağzından saqqızı çıxarıb “tuu” edəndə, düşüb oturacağın üstünə, sən də ayaq üstündə durmaq əvəzinə, oturub keçmisən əngələ, bəlaya.

Və yaxud da evdən çıxanda, səbir gəldimi, qayıt da. Niyə sizə öhdə yoxdur ki?.. Allahla Allahlıq etmək fikriniz var?.. Varsa, gedin, yarı yolda yerə kilidləşəndə ağlınız başınıza gələcək. Bir də baxacaqsınız ki, ayağınız ardınızca gəlmir. Dikilib yerə. Di, buyur, get, görüm, necə gedirsən? Ağlın başına gəldimi? Bəs səbrə inanmırdın. Çək cəzanı. Allaha inanmazsan, arvad-uşağın saqqızına tuş gələrsən, yapışıb yerdə qalarsan.

Söz dinləyən udar, dinləməyən də bizim günümüzə qalar. Gəlin bu gündən yığışdıraq ata-baba nəsihətini, küçədə yerə yox, göyə, yana-yörəyə baxaq ki, xirtdəyi qovuşmuşların pisini görməyək. İctimai nəqliyyatda oturmayaq ki, ağzına yara çıxmışların saqqızına yapışmayaq. Eləcə də səbir gələndə, bir ayaq saxlayaq ki, qapının ağzında, blokda, yolda yenə də kilidləşib qalmayaq. Nə deyirsiniz, bunları edək, ya etməyək?

Mən edəcəm, sizi bilmirəm. Yolda yerə baxmayacağam. Nəqliyyatda əyləşməyəcəyəm, səbir gəldimi, həmin gün iş-filan yoxdur. Vəssalam!

***Mətanət Məmmədova***

FELYETON

# “Arutunyanın “istefası” isə onun...”

“2020-ci ildən Qarabağdakı separatçı rejimin rəhbəri olan Araik Arutunyanın istefası bu ilin əvvəlindən Qarabağda ermənilər arasında səs küyə səbəb olan ikinci istefadır”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə bir müddət əvvəl separatçıların “baş naziri” Ruben Vardanyan da istefa vermişdi: “Bütün hallarda bu istefalar 44 günlük müharibədə Azərbaycan ordusunun əldə etdiyi qələbədən sonra Ermənistanda və Qarabağda getdikcə dərinləşən siyasi, sosial, iqtisadi böhranların nəticəsidir: ”Digər tərəfdən bu xüsusilə Qarabağa rusiyalı milyarder Vardanyanın gəlişindən sonra başlanmış hakimiyyət uğrunda mübarizənin doğurmuş olduğu reallıqlardır. Hər iki lider istefa verdikdən sonra belə Qarabağda sabitliyi qorumaq və daha da möhkəmləndirmək naminə buradan getməyəcəklərini bəyan ediblər, 2023-cü ilin martından isə Azərbaycan tərəfi ilə danışıqları aparan işçi qrupu məhz Arutunyanın qrup rəhbəri təyin etdiyi Samvel Şahmaryandır, bu isə onu söyləməyə əsas verir ki, işçi qrupu ilə aparılan danışıqlarda erməni tərəfinin konstuktiv mövqe sərgiləyəcəyi inandırıcı deyil, indiki qüvvələr nisbətində isə Qarabağ qurumun rəhbərliyinə bu qruplarla bağlı olmayan şəxslərin keçəcəyi də real deyil, bunu separatçıların təmsilçisi Badalyanın da bəyanatı təsdiq edir, Badalyan Ağdam - Xankəndi yolundan istifadə o zaman mümkün ola bilər ki, Laçın dəhlizində əvvəlki gediş gəliş bərpa edilsin deyib. Bəllidir ki, seperatçi rejim bir tərəfdən Ermənistan hakimiyyətinin təsiri altındadır, digər tərəfdən isə ABŞ və Fransa kimi dövlərlərin Azərbaycan dövlətinə olan ismarıclarına arxalanırlar, bu dövlətlər isə bir tərəfdən Azərbaycan hakimiyyətinə separatçi rejimlə danışıqlar masası arxasına oturmağı, digər tərəgdən isə Laçın dəhlizində əvvəlki gediş gəlişi bərpa etməyi tələb edirlər. Azərbaycanın mövqeyi isə bəllidir, biz Qarabağdakı erməni icmasının işçi qrupu ilə danışıqları davam etdirməyə hazırıq, digər tərəfdən Ağdam Xankəndi istiqamətində alternativ, daha qısa və təhlükəsiz yolla bağlı təkliflərimiz də qüvvədə qalır, bizim bu mövqeyimiz həm beynəlxalq hüquqa əsaslanır, digər tərəfdən isə Rusiya və Türkiyə kimi dövlətlər tərəfindən də müdafiə olunur, Arutunyanın istefası isə onun perspektivdə məsuliytətdən kənarda qalacağına təminat ola bilməz, bu şəxslərin həbsi ilə bağlı Azərbaycan dövlətinin İnterpola müraciəti var və o qərarın icrasına qədər də qüvvədə qalacaq”.

***G. Ağakərimova***





**Ulu Yaradan tərəfindən təəssüf ki, insan övladına acgözlük kimi bir xüsusiyyət də bəxş olunub. Bəlkə də bəxş olunub ki, əsl insanlığı ortaya çıxarsın; gözü toxlar acgözlərdən fərqlənsin. Və acgözlər sonda dünya malının dünyada qaldığını anlayıb toxgözlərin qazandıqlarına köks ötürsünlər. Onların mənəvi zənginliyinə həsəd etməklə, ömür boyu üst-üstə yığdıqlarının əslində dəyərsiz olduğunu anlasınlar. Bəs belə olan halda nə üçün bəzi insanların gözü acdır? Bilə-bilə ki, sonda hər kəs kimi eyni qayda ilə dünyasını dəyişəcək, bu dünyadan o biri dünyaya heç nə apara bilməyəcək, yenə də acgözdür, yenə də nə isə qazanmağa, mal-dövlətini artırmağa çalışır. Deməli, acgözlük elə bir hissdir ki, həm də insanı sağlam düşünməkdən uzaq edir.**

# Acgöz olma, sənin deyil bu saray...





## Nə üçün göz doymur?..

Acgözlük əslində həm xəstəlik, həm anormallıq, daha böyük mənada isə bəladır. Nə üçün? Elə adamlar tanıyırıq ki, dünya malından doymur ki, doymur. Sanki bir xəstəliyə tutulubmuş kimi mal-dövlət yığır, hər an bunu bir az da artırmağa çalışır, həm də yığdığını elə qoruyur ki, amandır, birdən üstündən bir qəpik o yan-bu yan ola bilər. Belə insanlarda acgözlükdən yaranan ikinci bir xüsusiyyət-simiclik də vardır. Yığır, lakin xərcləmir. Ailəsində həyat yoldaşı, uşaqları nəyəsə ehtiyac duyur, lakin baxmayaraq ki, onu qarşılaya bilər, lakin edə bilmir. Çünki evin kişisi simicdir, mal-dövlətinin çox olmasına baxmayaraq bir qəpik belə xərcləmək istəmir.

Acgözlük həm də anormallıqdır. Çünki insan pul yığmalıdır, mal-dövlət toplamalıdır kimi normal olmayan bir istəyə malik olur. Yəni, sağlam şəkildə düşünə bilmədiyi üçün anormaldır. Hər şeyin özünün olmasını arzulayır, buna can atır. Və topladığını qorumaq üçün canından keçməyə hazırdır. Bütün günü əlində olanları orada gizlədir, burada gizlədir, fikri-zikri qalır onun yanında ki, birdən kimsə tapar, kimsə aparar. Beləliklə anormal və narahat bir həyat yaşayır.

Bütün bunların fonunda isə söyləmək olar ki, acgözlük böyük bir bəladır. Müalicəsi olmayan xəstəlik, çıxışı olmayan yol, qurtuluşu olmayan psixoloji durumdur. Elə bir vəziyyətdir ki, insanı gündən-günə didib-parçalayır, məhv edir. Onda yeni xarakterlər-həsəd, paxıllıq, riyakarlıq, nankorluq kimi xüsusiyyətləri də formalaşdırır.

Hər kəsdə olmadığına görə acgözlüyü bir simptom adlandırmaq daha doğru olardı. Bu, bir şəxsdə də təzahür edir, bir nəsildəkökdə və ya ümumilikdə bir xalqda da. Bunlara ayrı-ayrılıqda nəzər salaq.

## Acgözlük ehtiyaca yol açır

Bəzən insan o dərəcədə acgöz olur ki, elə bu səbəbdən də, necə deyərlər, min arşın quyunun dibinə yuvarlanır. Bu o səbəbdən olur ki, kiminləsə bəhsəbəhsə düşür. Onda olanların özünün də sahib olmasına çalışır. Məsələn, qonşunun 2-3 mərtəbəli evi var, mənim də olsun, maşını var, mənim də olsun, uşağına dəbdəbəli toy etdi, mən nə üçün etməyim? Nəvəsinə kiçik toy etdi, mən də etməliyəm, qızına dəbdəbəli ad günü keçirdi, mən də etməliyəm. Bax, bunların hər birini kiməsə həsəd etməklə həyata keçirməyə cəhd edən adam zaman-zaman acgözlüyün qurbanı olur. Borc alır, qaytara bilmir, kredit götürür, ödəyə bilmir. Əlində olanı xərcləyir, ehtiyacdan qurtara bilmir.

Axı sənin özünəməxsus evin var, nə üçün imkanların xaricində olanını arzulamalısan. Axı sən maşın almaq imkanında deyilsən, nə üçün kiminləsə bəhs edirsən. Oğluna-qızına dəbdəbəli toy etmək gücün yoxdur, nə üçün bunun üçün özünə problem yaradırsan? Nəvənə kiçik toy etsən də, etməsən də heç bir məna kəsb etmir, nə üçün bunu hökmən etməlisən? Çünki acgözlüklə həsəd hissi bir-birinə qarışıb bəzi insanları məhvə aparan yola çıxarır. Bu yol uzun və keşməkeşlidir. Bu daşlı-çınqıllı yollarda yıxılıb dizlərindən qan süzənlər görmüşük, lakin qalxıb bir az ağrıları keçəndən, yaraları sağalandan sonra eynilə yoluna davam etməyə çalışıb. Nə ağrıları, nə də yaraları onun ac gözünü doyuzdura bilməyib.

Və yaxud da bu yolda digər insanlarla da qarşılaşmışıq. Bəli, onların da gözü acdır, lakin birinci gözüaclardan fərqli olaraq, bunlar mal-dövləti olanlardır. Lakin o mal-dövlətdən bir qəpik belə xərclənməsini istəməyənlərdir. Onlar bu çətin, daşlı yollarla irəliyə doğru addımlayırlar. Təbii ki, mal-dövlətlərini artıra-artıra, xərcləmədən. Yolun başına çatanda ömür də başa çatır, dünya ilə vidalaşırlar, illərlə yığıb mühafizə etdikləri isə bir neçə ayın, həftənin qurbanı olur. Ətrafındakılar bu mal-dövləti necə dağıdırlarsa, ondan əsər-əlamət qalmır. Hansı ki, sahibi dünya nemətlərindən məhrum qalmaqla onu toplamışdı.

Nəsillər var ki, onları yaşadıqları ərazilərdə hamı acgöz nəsil kimi tanıyır. Bu nəsillərə məxsus adamlar mal-dövlət hərisidirlər. Yığa bildikcə yığan, doymayan, həm də ürəkləri daş insanlardır. Nə bir yetimin başına əl çəkir, nə qapılarına diləyə gələni əlidolu qaytarır, nə də həyətdə-bacada ayaqlarına dolaşan it-pişiyə bir tikə çörək verirlər. Həyatı yalnız özləri üçün yaşayırlar.

## Acgözlük insanın sonudur

Acgözlük həm də tək maddiyyat üzərində qurulan bir xüsusiyyət deyil. Mənəvi cəhətdən acgöz olan insanlar da var. Məsələn, yalnız pislik etmək üçün yaranan və pislik etdikcə də gözü doymayan insanlar var. Həyatı yalnız ziyan vurmaqla keçən, bundan ləzzət alan insanlar var. Əxlaqi dəyərləri acgözlüyünə qurban olan insanlar da var. Acgözlüyün bu növləri əslində mal-dövlət hərisi olanlardan daha dəhşətlidir. Belə ki, bu cür insanlar ancaq insanların pis gününə sevinir, pis gün yaşamaları üçün əlindən gələni edir. Və yaxud da qonşuya, qohuma ziyan vuran, bundan doymayan, "daha nə edim",- deyə düşünən, gecəgündüz yol axtaranlar da var. Eləcə də əxlaqi acgözlüyünə qurban gedən insanlar da var ki, bələləri ilə mübarizə aparmaq daha çətindir. Onlar bu xüsusiyyətləri ilə ailələrinə, əxlaqi dəyərlərə xəyanət edir, yaxınlarının böyük cəhdlərinə baxmayaraq bu yoldan çəkinə bilmirlər.

Beləliklə, acgözlük bu xüsusiyyətlərə malik insanların sonunu vaxtından əvvəl gətirir. Bir el məsəlində deyildiyi kimi, su səhəngi suda sınar, bu insanlar da öz əqidə və əməllərinin qurbanı olurlar. Acgözlük kimi cılız hisslər belə insanların içlərini gəmirməklə, onları vaxtından əvvəl məhz edir. Necə ki, qurd ağacın gövdəsini yeməklə onun qurumasına səbəb olur, bu hisslər də onun kimidir. Zaman-zaman insan övladının sonunu hazırlayır.

## Acgöz həm də nankordur

Başqa cür düşünmək mümkün deyil: acgöz insan həm də nankor olur. Bunu qonşu ermənilərin simasında o qədər bariz şəkildə görmüşük ki, ona görə belə əminliklə söyləyə bilirik. Bu acgözlər süfrəmizin kənarında qır-qırıntı yeyə-yeyə nələrin iddiasında imişlər, illərdir ki, yaxşı gördük. Sən demə özünü miskin vəziyyətə salan qonşumuz əslində acgöz kimi cılız keyfiyyətə malik imiş. Elə bunun üçün də min bir dona girir və istəyinə çatmaq üçün riyakarlıq edirmiş. Bu riyakarlıqla da acgözlükləri ildən-ilə daha çox meydana çıxdı. Torpaqlarımızı işğal etdilər, gözləri doymadı. Soydaşlarımızın mal-dövlətini mənimsədilər, evlərinin dam örtüyündən tutmuş qapı-pəncərəsinədək söküb satdılar, gözləri doymadı. O torpaqların yeraltı-yerüstü sərvətlərini xarici bazarlara daşıyıb valyutaya çevirdilər, yenə gözləri doymadı. Çünki bu xalqın qanında acgözlük var. Bu hissi heç nə ilə azalda bilmirlər. Tarixən bunların acgözlüyü təsdiq də olunub. Digər xalqlar da onların gözlərinin ac olduğunu, heç vaxt doymadığını təsdiqləyiblər. Və millətlərə onlardan ehtiyatlı olmağı tövsiyə ediblər.

Beləliklə, biz erməniləri tanıyandan onların acgözlüyünə bələd olmuşuq. Həmçinin də acgözlükdən doğan nankorluqlarına. Onlar süfrəmizin kənarında yedikləri çörəyi də unutdular, onlara edilən hörməti də.

İllər, əsrlər sonra da onlar bu xüsusiyyətlərindən əl çəkməyəcəklər. Ona görə ki, bu cür yaranıblar. Allah-təala onlara belə cılız hissləri verib, "özünüzü dünyada rəzil-rüsvay edin",- buyurub. Elə 2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsi başlayarkən də bunların acgözlüyünün şahidi olduq. İşğal etdikləri azmış kimi, yeni torpaq iddiasına düşmüşdülər. Lakin arzuları ürəklərində qaldı. Yeni acgözlüklərin qarşısı, köhnə acgözlük nəticəsində qazanılanlar əllərindən alındı. Nankorluqları bir daha onunla təsdiq edildi ki, soydaşlarımız yaşayan ərazilərdə daşı daş üstündə qoymamışdılar. Talayıb, sonra da od vurub yandırmış, insanların ev-eşiyini xarabazara çevirmişdilər.

## Acgöz olma, sənin deyil bu saray...

Bəli, dahi Nizami Gəncəvinin dediyi kimi, ey insan, acgöz olma, sənin deyil bu saray. Bu saray dünyadır. Sənsə bu dünyaya qonaq gəlmiş, müəyyən vaxt sonra öz əbədi məkanına qayıdacaq varlıqsan. Belə isə bu dünyadan oğurladıqların, mal-dövlət, bir qarış torpaq, digər mənəvi zəifliyinin nümunələri əbədi sənin olacaqmı, düşünürsən? Xeyr, olmayacaq. Onlar bu dünyaya məxsusdur. O dünya ki, əlindən hər şeyi alıb səni haqq dünyasına yola salır. Səninlə o dünyaya gedən isə yalnız insani duyğular, mənəvi zənginliyin olur. Bu dünyada necə yaşamısansa, neçə-neçə nəsil səni o cür xatırlayır, vəssalam. Bəs belə isə acgöz olmağa dəyərmi? Bunun üçün özünə də, başqalarına da əziyyət verməyə, bu cılız adı daşımağa dəyərmi?..

***Mətanət Məmmədova***

# Andrey Fyodorov: “Qarabağın taleyini müəyyən edəcək kritik məqam yetişib”

*Rusiya XİN rəhbərinin keçmiş müavini: “Əgər hərbi əməliyyatlar başlasa, Ermənistanın Avropa və ya Amerikadan hərbi yardım almayacağına zəmanət yoxdur”*






Ermənistan Qarabağ ermənilərinin guya blokadaya alınması ətrafında yaranmış vəziyyəti beynəlxalq qalmaqala çevirməyə çalışır. BMT Təhlükəsizlik Şurasının iclası çağırılır, Laçın yoluna daxil olmaq üçün ATƏT nümayəndəsi göndərilir. Ermənistan bölgəyə getdikcə daha çox beynəlxalq strukturları cəlb etməyə çalışır.

Bir neçə gün əvvəl Parisin və Fransanın digər şəhərlərinin merlərinin rəhbərlik etdiyi Fransa humanitar karvanı İrəvanın baş meydanından hökumət binasının yaxınlığından təntənəli şəkildə yola düşərək Laçın yolunun girişinə gəlib və bir aydan çoxdur ki, orada dayanmış erməni yük maşınlarına qoşulub. Parisin meri Ann Hidalqo Birinci Qarabağ müharibəsi zamanı Xocalı rayonunda azərbaycanlı əhalinin qətliamında iştirak etmiş, Azərbaycan tərəfindən Laçın sərhəd-keçid məntəqəsində saxlanılan erməni yaraqlısı Vaqif Xaçatryanın qızını açıq-saçıq qucaqlayıb. Və sonra o, Emmanuel Makrona Qarabağ ermənilərinin “blokadası” ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnaməsinin müzakirəsinə başlamağı təklif edəcəyini bəyan edib.

Eyni fonda Avropa rəsmiləri, o cümlədən yüksək səviyyəli şəxslər tərəfindən Azərbaycana qarşı ittihamlar planı işə düşməyə başlayır və bu, Qarabağda ermənilərə qarşı “humanitar fəlakət və etnik təmizləmə”nin qaçılmaz olması kimi yayımlanır. Belə ki, Bundestaq sədri bəyan edib ki, Aİ-nin monitorinq missiyası Azərbaycana genişləndirilməli, Avropa Şurasının missiyası isə Qarabağa göndərilməlidir. Almaniya Xarici İşlər Nazirliyinin rəhbəri, özünün də qeyd etdiyi kimi, fransalı həmkarı ilə söhbətdən sonra deyib ki, “Dağlıq Qarabağda insanların vəziyyəti fəlakətlidir” və ona görə də bu mövzu parlamentin iclasının Aİ xarici işlər nazirlərinin İspaniyadakı görüşünün gündəliyinə daxil ediləcək. Ancaq bu, hamısı deyil. Bəzi Avropa rəsmiləri Azərbaycana qarşı sanksiyalar tələb edir, hətta

Azərbaycan prezidentini Beynəlxalq Cinayət Məhkəməsinə verməklə hədələyirlər, iddia edirlər ki, o, “tirandır” və onunla “mübarizə aparmaq” lazımdır.

Erməni diplomatiyası beynəlxalq platformalarda və ikitərəfli əsasda xarici həmkarları ilə Azərbaycanın ictimai qınağı məsələsi üzərində işləyir. Gərginlik müxtəlif səviyyələrdə süni şəkildə qızışdırılır. İrəvanda mitinqlər, Qarabağda isə separatçılar nümayişlər keçirir. Bir neçə gün əvvəl gün radikallar Azərbaycanın Livandakı səfirliyinə hücum ediblər. Qarabağdakı rus sülhməramlılarının məsuliyyət zonasında separatçılar rus hərbçilərinə qarşı bir sıra iyrənc və təhlükəli insidentlər törətdilər.

Rəsmi Bakı humanitar yüklərin tədarükü və yollar mövzusunda şouya icazə verməyəcəyini bildirib, həmçinin Fransaya etiraz notası göndərib.

Bu cür hadisələr silsiləsinin arxasında nə dayanır - Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov ”Moskva-Baku” portalına müsahibəsində fikrini açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Bir sıra Qərb dövlətlərinin Azərbaycana qarşı informasiya və siyasi hücumlarının partlaması göz qabağındadır. Eyni zamanda, Bakıdan Qarabağ ermənilərinə humanitar yardım göndərildikdən sonra belə Ermənistan hakimiyyəti Azərbaycan tərəfinin hansısa “erməni soyqırımı” ilə bağlı tezisini mantra kimi təkrarlamaqda davam edir. Baxmayaraq ki, separatçılar özləri bu yardımı qəbul etmirlər. Bunun arxasında nə dayanır?**

- Mənim nöqteyi-nəzərimə görə, indi Qarabağ məsələsində bütün vəziyyətin gələcəyini müəyyən edəcək kritik məqam gəlib. Bu, beynəlxalq ictimai rəy vasitəsilə və ilk növbədə Fransa vasitəsilə “soyqırım” mövzusu və guya Azərbaycan tərəfinin blokadaya getməsi, humanitar yardımın keçməsinə imkan verməməsi iddiaları Ermənistan üçün son fürsətdir. Və sual budur: Azərbaycan özünü satacaq, yoxsa satmayacaq. Azərbaycanı beynəlxalq müstəvidə küncə sıxışdırmaq, beynəlxalq təcrid vəziyyətinə salmaq cəhdləri var.

Artıq Yerevan və ona BMT Təhlükəsizlik Şurasında qalmaqal yaratmağa kömək edən Qərb dövlətləri tərəfindən cəhdlər edilir. Düşünürəm ki, əgər indi Ermənistan və onun “silah yoldaşları” öz məqsədinə nail ola bilməsələr, o zaman bu, sonradan alınmayacaq, mövzu puç olacaq. Biz müxtəlif tərəflərin çoxsaylı maraqlarının üst-üstə düşdüyü bir vəziyyət görürük. Və bu maraqların mövcudluğu ona gətirib çıxarıb ki, indi Ermənistan və ona yardım edənlər tərəfindən tamamilə fərqli səviyyələrdə və platformalarda Azərbaycanı iblisləşdirməyə cəhd edilir.

Laçın yolunun, Ağdam-Xankəndi yolunun ətrafında qaynayan o ehtiraslar təkcə bir növ yol məsələsi deyil. Bu, texniki deyil, sırf siyasi məsələdir. Obyektiv olaraq, arzu olunarsa, yük istənilən yolla çatdırıla bilər. Qarabağ ermənilərinin “blokadası” və Azərbaycanın onlara humanitar yardım göndərmək üçün “yaşıl işıq yandırmaq istəməməsi” erməni və fransızları tərəfindən niyə Laçın yolu ilə yox, başqa hər hansı yolla daşınması mövzusu müzakirə olunmur? Qərbdə Ermənistan və onun Qərb tərəfdarları tərəfindən məhz humanitar problem kimi, Azərbaycanın guya humanitar hüququ pozduğu bir hal kimi təbliğ olunur. Bu təqdimat beynəlxalq rezonans verir.

Sonra da Avropa guya insan haqlarını müdafiə etməyi sevir. Məhz humanitar məsələlərə Qərbdə ictimai rəy çox həssasdır. Orada heç kim Laçın dəhlizinin nə olduğunu başa düşmür, sadəcə görürlər ki, Azərbaycanı sərt şəkildə qınayıblar, Azərbaycan insanlara humanitar yardım ötürmək istəmir, Bakı Qarabağda humanitar fəlakət, soyqırım təşkil etmək istəyir. Bu, Qərbdə təbliğ olunan çoxlu sayda materialın leytmotividir. Onlarda isə heç kim vəziyyətin geosiyasi nəticələrini müzakirə etmir.

**- Beynəlxalq səviyyədə bunun arxasında kimin maraqları dayanır?**

- Bunlar Ermənistan və Fransanın razılaşdırılmış hərəkətləridir. Bunlar Kanada da daxil olmaqla əsasən fransız elementi olan bütün ölkələrdir. Bir də Almaniyadır. Biz xatırlayırıq ki, Avropa Parlamentində neçə dəfə Azərbaycan əleyhinə qətnamələr qəbul edilib. Birləşmiş Ştatlar bundan bir qədər kənarda dayanır, baxmayaraq ki, o da özünəməxsus şəkildə ocağa yanacaq atır.

Fransanın Cənubi Qafqazda həmişə maraqları olub. O, burada öz oyununu oynayır. Fransa Avropada ən güclü erməni lobbisinə malikdir. Ölkə daxilində mövqelərinin zəifləməsi fonunda Ermənistan-Azərbaycan nizamlanmasında fəaliyyət Makron üçün vacibdir. Fransa əhalisi arasında erməni elektoratının xeyli sayda olmasını nəzərə alsaq, Zaqafqaziyada uğur görüntüsü yaratmaq, ermənilərin maraqlarını müdafiə etmək Fransa prezidentinin reytinqini daha da artıra bilər.

Fransa da bir sıra digər ölkələr kimi Qarabağ məsələsinin yenidən beynəlxalq miqyas almasını təmin etməyə çalışır.

Azərbaycanla Ermənistan arasında gərginliyin artmasının arxasında digər məsələlərlə yanaşı, Rusiyanın xarici siyasətinə problemlər yaratmaq vəzifəsi də dayanır. Rusiya bu gün ümumilikdə çox çətin vəziyyətdədir. Ermənistan-Azərbaycan prosesində də çətin vəziyyət yaranıb. İstər Azərbaycana münasibətdə, istərsə də Ermənistana münasibətdə balans saxlamaq lazımdırsa. Amma Qarabağ probleminin beynəlmiləlləşdirilməsi istiqamətində aktiv və ardıcıl cəhdlər, bir çox oyunçuların məsələyə cəlb olunması, eləcə də Rusiya, Azərbaycan və Ermənistan arasında əldə olunmuş üçtərəfli razılaşmaların həyata keçirilməməsi bu formatın, təəssüf ki, fəaliyyətini dayandırması deməkdir.

Azərbaycan uzun mübarizəyə hazır olmalıdır. Çətin olacaq. Çünki Bakı təbii ki, ona qarşı hiylələrə reaksiya verir, amma deyək ki, Aİ-yə, Qərbin hansısa təxribatçı ölkəsinə “yox” desə, ona qarşı təzyiqlər daha da güclü olacaq. Ona görə də diqqətlə cavab verməlidir. Çünki beynəlxalq aləmdə Azərbaycanın imici korlansa, ölkə üçün çətin olacaq. Baxmayaraq ki, Azərbaycanla enerji sahəsində əməkdaşlığın təbii ki, Avropa üçün vacib olduğunu heç kim inkar etmir. Necə ki, oradan tranzit dəhliz lazımdır və vacibdir. Hələlik Azərbaycan, ümumiyyətlə, müqavimət göstərməyi, dirənməyi bacarır. O, güclü regional oyunçudur. Və onun müstəqillik arzusu çoxlarının xoşuna gəlmir.

**- Son günlər Qarabağdakı separatçıların Rusiya sülhməramlılarına qarşı necə sərt davrandığına dair görüntülər yayılıb. Mitinqlər necə gedir? Moskva ilə İrəvan arasında davamlı atışmalara diqqət etməmək mümkün deyil. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi bəyan edib ki, Laçın yolunda vəziyyət İrəvanın Qarabağı Azərbaycan ərazisi kimi tanıması nəticəsində yaranıb. Həm də faktiki olaraq XİN nümayəndəsi Ermənistanın razılaşmaları yerinə yetirmədiyini açıqlayıb və onu “natəmizlikdə” ittiham edib.**

- Sülhməramlılarla toqquşmalar- bir tərəfdən burada emosiyalar var, digər tərəfdən, sözsüz ki, regionda sabitliyi pozmaq üçün oynayan təxribatçılar var. Rusiya XİN ilə Ermənistan XİN arasında atışmalar da Ermənistan-Azərbaycan nizamlanması ətrafında vəziyyətin çətinliyindən xəbər verir.

**- Mövcud vəziyyəti nəzərə alsaq, nizamlanma perspektivləri necədir?**

- Hələlik, heç bir müsbət perspektiv yoxdur. Ermənistan bunda maraqlı deyil. O, Qarabağı öz təsirində saxlamaq istəyir. Ərazidə məskunlaşma və inkişaf üçün məhz bu nizamlanmanın mexanizmlərini işə salmaq lazımdır. Və indi bir çox səbəblərə görə dayandırılıblar.

Əgər hərbi əməliyyatlar ssenarisini nəzərə alsaq, o zaman Ermənistanın Avropa və ya Amerikadan hərbi yardım almayacağına zəmanət yoxdur.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*



SON SƏHİFƏ
SƏS
5 sentyabr
2023-cü il

# AZAL prezidentinin işdən çıxarılması bilet qiymətlərinə necə təsir edə bilər?



*Məlumdur ki, bir neçə gün öncə Cahangir Əsgərov "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamla "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Samir Musa oğlu Rzayevə həvalə edilib. Qeyd edək ki, Cahangir Əsgərov 1996-cı ildə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru vəzifəsinə təyin edilmişdi. Əsgərov 1 may 2008-ci il tarixində isə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilmişdi.*

**İQTİSADÇI EKSPERT AÇIQLADI**

Bəs, AZAL prezidentinin işdən azad edilməsi bilet qiymətlərinə necə təsir edə bilər? Mövzu ilə bağlı SİA iqtisadçı-ekspert Ruslan Atakişiyevin fikirlərini öyrənib.

Onun sözlərinə görə, ilk olaraq diqqət yetirmək lazımdır ki, bu günə kimi AZAL-da bilet qiymətlərinin formalaşması haradan qaynaqlanırdı: "Əgər Cahangir Əsgərovun işdən azad edilməsi ilə bilet qiymətləri ucuzlaşırsa, deməli, qiymətlərin yüksək olması birbaşa həmin şəxsin təşəbbüsü ilə baş tuturdu. Burada subyektiv amillərlə yanaşı, obyektiv amillər də var. Bu da onunla bağlıdır ki, AZAL bazarda əsas inhisarçı qurumdur. İnhisarçı qurum da mütləq ki, qiymətləri daha da artırmaqda maraqlı olurlar.

Ona görə də hesab edirəm ki, bazarda oyunçuların sayının artırılması və ümumiyyətlə, AZAL-ın gələcəkdə qismən də olsa özəl sektora bir hissəsinin satılması orada qiymətlərdə enişin keyfiyyətinə təsir göstərə bilər. Bu baxımdan da, sırf Cahangir Əsgərovun işdən azad edilməsi ilə qiymətin yüksək olmasını bütünlükdə subyektiv amillərlə bağlamaq istəməzdik. Amma bu günləri AZAL-da sturuktur dəyişiklikləri aparılır və rəhbər şəxs işdən azad olunursa, istər-istəməz işə yeni təyin olunan şəxslə bağlı cəmiyyətdə gözləntilər var. Bu gözləntiləri qarşılamaq üçün AZAL-da xidmətin keyfiyyətinin artırılması, həm də qiymət baxımından müxtəlif islahatlar aparılacaq.

Hesab edirəm ki, qiymətlərin ucuzlaşdırılması məsələsi nəzərdən keçirilə bilər. Çünki yeni təyinat yeni imici formalaşdırmaqda maraqlı olacaq".

*Ayşən Vəli*

# Tomas Müller Almaniya millisinə geri döndü!



**"Bavariya" klubunun futbolçusu Tomas Müller Almaniya millisindəki karyerasını bərpa edir. Almaniya Futbol İttifaqının rəsmi saytında bu barədə məlumat dərc olunub. Məlumatda deyilir ki, baş məşqçi Hans-Diter Flik 34 yaşlı hücumçunu yoldaşlıq oyunları üçün yığmaya çağırıb. Təcrübəli futbolçu Dortmund "Borussiya"sında çıxış edən və zədə səbəbindən düşərgəyə qoşula bilməyən Niklas Fyullkruqu əvəzləyəcək.**

Qeyd edək ki, Tomas Müller hələ Qətərdəki dünya çempionatı ərəfəsində millidəki karyerasını bitirdiyini elan etmişdi Almaniya millisi sentyabrın 9-da Yaponiya, üç gün sonra isə Fransa ilə yoldaşlıq görüşü keçirəcək.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Mənzilini sığortalamayanları nə gözləyir?



"Hesab edirəm ki, mənzillərin məcburi sığortası ilə bağlı qərar olduqca önəmlidir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, baş verən qəza hadisələrində vətəndaşların çətinliklərlə üzləşdiyinin şahidi oluruq: "Lakin mənzillərin məcburi sığortası nəticəsində artıq bir çox problemlər aradan qalxacaq və daha tez həll ediləcək. Buna görə də vətəndaşları mənzillərini sığortalamaq məsələsində diqqətli və fəal olmağa dəvət edirəm. Eyni zamanda mənzilini sığortlamayanlar üçün qanunvericilikdə bir sıra cəzalar yer alıb. Çünki dövlətin qəbul etdiyi qərarlara hörmətlə yanaşıb, icra etmək lazımdır. Hər şeydən öncə bunu öz gələcəyimiz üçün etməliyik".

*Səbinə Hüseynli*

# Məktəbli formaları ilə bağlı hansı problemlər mövcuddur?



"Ümid edirəm ki, yeni tədris ilindən artıq standart məktəbli formaları ilə bağlı verilmiş qərara müvafiq olaraq formaların əldə edilməsində hər hansı bir problem yaşanmayacaq və kifayət qədər formalar tikilib". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib. Onun sözlərinə görə, qiymətlər də əlçatandır: "İstənilən halda valideynlər övladları üçün məktəbli formaları alırdılar. Bu baxımdan da dəyişən heçnə yoxdur. Bütövlükdə isə aztəminatlı ailələr, sosial həssas qrupdan olan ailələr üçün verilən güzəştlərin tətbiqi nəzərdə tutulur.

Ümid edirəm ki, artıq bu tədris ilindən başlayaraq məktəblilərimizi vahid formada görə biləcəyik. Yeni tədris ilinə hazırlıqlarla bağlı məktəblər də olur və bu barədə məlumatlar alırıq. İndiyə kimi bu və ya başqa bir ciddi problemlə qarşılaşmamışıq".

*Səbinə Hüseynli*

## ELAN

**"Stil-Tikinti" MTK tərəfindən Məmmədov Anar Vilayət oğluna Xudu Məmmədov 2942 məhəllə bina 5, mənzil 44 -ə verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**